Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

30 MAY 2019-cu il

№ 95 (3993)

Qiyməti 50 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# QONDARMA «DQR»DƏ SAAKYANI DEVİRMƏK ÜÇÜN AÇIQ ŞƏKİLDƏ ALYANS YARADILDI...

■ səh. 8 ■

Azərbaycana qarşı informasiya müharibəsində inanılmaz "ittifaq" - xaricdə erməni lobbisi, daxildə radikallar... Prezident nəyi nəzərdə tutdu...

■ səh. 4 ■

Elmar Məmmədyarovun məqaləsinə erməni nazirin cavabı - "əvvəlki razılaşmaların bəzi nəticələrini yaxında göstərəcəyik"

■ səh. 9 ■

Türkiyə və Rusiyanın S-400 sövdələşməsinə Bakıdan, İrəvan və Ankaradan fərqli reaksiyalar...

■ səh. 7 ■

Ölkənin ən iddialı iki radikal müxalifəti Rəsulzadənin məzarına ayrılıqda, həm də cəmi 400 nəfərlə getdilər...

■ səh. 5 ■

Tramp və Çin lideri güzəştlərsiz bir-birinin üzərinə yeriməyə qərar verdi...

■ səh. 12 ■

Bakıda II Qafqazşünaslıq konfransı və Ermənistanın iştirak məsələsi...

■ səh. 6 ■

Ölkədə taxıl idxalında artımın neqativ və pozitiv nəticələri...

■ səh. 13 ■

Zaqatala sakini rayon bələdiyyəsindən və su məmurlarından niyə narazıdır...

■ səh. 15 ■




■ səh. 2-3 ■

✔ Donald Tramp Azərbaycan Prezidentinə «Ölkənizin uğurlarını genişləndirməyin əsl vaxtıdır» yazdı...

✔ Prezident İlham Əliyev neft-qaz strategiyasının tarixini və hədəflərini bir daha göstərdi...



Trampın İlham Əliyevə Cümhuriyyət təbrikində Dağlıq Qarabağla əlaqəli fikrin mahiyyəti...

■ səh. 8 ■



«7 rayon qaytarılır, Azərbaycan Ermənistanın iqtisadi blokadasını aradan qaldırır»

■ səh. 6 ■

Ermənistanın KTMT ilə düz birillik ağılsız mübarizəsi rüsvayçı məğlubiyyətlə bitdi

■ səh. 5 ■

■ səh. 4 ■

Azərbaycan üçün yeni regional və qlobal təhlükələr - ölkənin sığortası niyə etibarlı sayılır...



■ səh. 10 ■

Ermənilər Şuşanın mədəniyyət irsinə qarşı təcavüzün yeni mərhələsinə başlayıblar



■ səh. 14 ■

Azərbaycan internetin sürətinə görə dünya üzrə pis yer tutdu - 98-ci pillə...



■ səh. 15 ■

Çayı həm ixrac edirik, həm də idxal - yerli istehsal tələbatı niyə ödəmir...



■ səh. 14 ■

Xaricdə doktorantura təhsilimiz əsasən dəqiq ixtisaslar üzərində qurulub, humanitar sahələr...



## UEFA prezidenti Azərbaycan dövlət başçısına təşəkkürünü bildirdi

**Prezident İlham Əliyev mayın 29-da Avropa Futbol Assosiasiyaları Birliyinin (UEFA) prezidenti Aleksandr Çeferinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Dövlət başçısı Aleksandr Çeferin və UEFA Avropa İcraiyyə Komitəsinin üzvləri ilə əvvəlki görüşünü xatırlayaraq, yenidən nümayəndə heyətinin Bakıya səfərindən məmnunluğunu ifadə edib və Azərbaycanla UEFA arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirib.

Avropa Futbol Assosiasiyaları Birliyinin prezidenti Aleksandr Çeferin Bakıda UEFA Avropa Liqasının final oyununun keçirilməsi üçün yüksək səviyyədə hazırlıq işlərinin görüldüyünü qeyd edib, Bakının çox gözəl şəhər olduğunu, müasir inkişafı və tarixi ənənələri özündə birləşdirdiyini vurğulayara, paytaxtımızda özlərini çox rahat hiss etdiklərini deyib. UEFA prezidenti Avropa Futbol Assosiasiyaları Birliyinin Azərbaycan Futbol Federasiyaları Assosiasiyası ilə uğurlu əməkdaşlıq həyata keçirdiyini qeyd edərək, yaradılmış şəraitə görə minnətdarlığını bildirib.

Sonda xatirə şəkli çəkdirilib.

## Səudiyyə şahzadəsinin iki il əvvəl 450 milyon dollara aldığı tablo saxta çıxdı

**Səudiyyə Ərəbistanının şahzadəsi Məhəmməd bin Salmanın iki il əvvəl hərracda satın aldığı Da Vinçinin Hz. İsa tablosunun saxta olduğu ortaya çıxıb.**



Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, şahzadə Salman Leonardo Da Vinçinin Salvador Mundi adlı rəsm əsərini 2 il əvvəl 450 milyon dollara satın alıb. Sonradan şahzadənin Da Vinçinin rəsm əsəri adı ilə aldığı tablonun orijinal olmadığı, onun aldadıldığı ortaya çıxıb.

Şahzadə 450 milyon dollara aldığı əsərin sahibinin Leonardo Da Vinçi olmadığını iki il sonra öyrənə bilib. Parisdəki Luvr Muzeyində çalışan mütəxəssislər də əsərin saxta olduğunu deyib.

# Prezident İlham Əliyev neft-qaz strategiyasının tarixini və hədəflərini bir daha göstərdi...




**Böyük Britaniyanın "ITE Group Plc" şirkətinin baş məsləhətçisi Endryu Vud sərgi-konfransın 26-cı ildönümünü nailiyyətlərlə qeyd etdiyini, Azərbaycana hər gəlişində burada müsbət dəyişikliklərlə qarşılaşdığını bildirərək, sərginin işinə uğurlar arzulayıb.**

Sonra dövlət başçısı İlham Əliyev açılış mərasimində nitqində deyib ki, 1994-cü ildə keçirilmiş birinci sərgi Azərbaycanı dünyaya təqdim etdi, Azərbaycanın zəngin neft-qaz resursları haqqında dünyaya məlumat verdi. Çünki o vaxt Azərbaycan haqqında məlumat çox məhdud idi, bizim ölkəmiz gənc müstəqil dövlət idi, müstəqilliyinin ilk illərini yaşayırdı. Əlbəttə, dünyada, xüsusilə neft-qaz aləmində Azərbaycanın potensialı haqqında məlumat, demək olar ki, yox idi. Sərginin keçirilməsi, Azərbaycana diqqətin cəlb edilməsi gələcəkdə Azərbaycanın neft-qaz sektorunun inkişafı üçün çox önəmli rol oynadı…

...Onu da bildirməliyəm ki, sərginin "Şahdəniz" qaz-kondensat yatağı üzrə imzalanmış Sazişə də çox böyük dəstəyi olmuşdur. Çünki o Saziş məhz 1996-cı ildə keçirilmiş sərgi zamanı imzalanmışdır. O vaxt "Şahdəniz" yatağına xarici investorları cəlb etmək o qədər də asan məsələ deyildi. Çünki xarici şirkətlərin əsas hissəsi neft yataqlarına daha böyük maraq göstərirdi. Çünki mənfəət baxımından, əlbəttə ki, bu daha cəlbedicidir. Qaz yataqlarına isə maraq o qədər də böyük deyildi. O vaxt bütövlükdə qaz amili enerji təhlükəsizliyi baxımından o qədər də böyük əhəmiyyət kəsb etmirdi. Buna görə "Şahdəniz" yatağı üzrə imzalanmış kontraktın da ölkəmiz üçün çox böyük faydası oldu və bu gün biz bunun xeyrini görürük.

...Azərbaycan bir çox xarici enerji şirkətləri ilə uğurlu əməkdaşlıq aparır və bu əməkdaşlığın böyük tarixçəsi var. Hər bir şirkətlə əməkdaşlıq aparmaq bizim üçün çox önəmlidir, ancaq mən, xüsusilə BP şirkətini qeyd etmək istərdim. Çünki BP şirkəti bizim strateji tərəfdaşımızdır, strateji investordur. Biz 25 ildir ki, əməkdaşlıq edirik. Bu əməkdaşlıq həm ölkəmiz, həm də şirkət üçün çox uğurludur. Hesab edirəm ki, bu əməkdaşlıq nümunəvi xarakter daşıyır və bu əməkdaşlığın gözəl gələcəyi var. Çünki qeyd etdiyim kimi, təkcə "Azəri-Çıraq-Günəşli" yatağı üzrə işlər ən azı 2050-ci ilə qədər aparılacaqdır. "Şahdəniz" qaz-kondensat yatağının işlənilməsi də bundan sonra onilliklər ərzində aparılacaqdır. Beləliklə, bizim strateji tərəfdaşlığımızın çox gözəl perspektivləri vardır.

Dövlət Neft Fondunun yaradılması və Dövlət Neft Fondunun xətti ilə ən vacib məsələlərin həlli - bu da uğurlu neft siyasətimizin nəticəsində olmuşdur. Yüzdən çox köçkün şəhərciyi Dövlət Neft Fondunun xətti ilə inşa edilmişdir. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və infrastruktur layihələrinə investisiya qoyuluşu da məhz bu layihələrlə bağlıdır. Biz son illər ərzində əsas infrastruktur layihələrimizi icra etdik və bu istiqamətdə işlər davam etdirilir. Həm yol tikintisi, həm qazlaşdırma, həm də elektrik enerjisi ilə bağlı olan məsələlər Azərbaycanda uğurla icra edilir. Qazlaşdırma 95 faizə çatıb. Əgər kifayət qədər qaz resurslarımız olmasaydı, bu, mümkün olmazdı.

...Bugünkü Azərbaycan reallıqları onu göstərir ki, biz düzgün yoldayıq. 1994-cü ildə başlanmış və uğurla davam etdirilən neft-qaz siyasətimiz bu gün Azərbaycanın reallıqlarını şərtləndirən əsas amillərdən biridir.

ABŞ Dövlət Departamentinin enerji ehtiyatları bürosunda dövlət katibi köməkçisinin birinci müavini Kent Loqsdon Azərbaycanın qlobal enerji bazarına, Cənub Qaz Dəhlizi layihəsinin isə enerji təhlükəsizliyinə töhfə verdiyini vurğulayıb, bu layihənin reallaşmasına verdiyi dəstəyə görə Prezident İlham Əliyevə və digər tərəfdaşlara təşəkkür edib. Kent Loqsdon daha sonra ABŞ Prezidenti Donald Trampın məktubunu tədbir iştirakçılarına çatdırıb.

Böyük Britaniyanın beynəlxalq ticarət üzrə dövlət katibi Liam Foks videomüraciətində bildirib ki, Azərbaycan enerji müstəqilliyini təmin etmiş ölkədir. Azərbaycanla Böyük Britaniya arasında dərinləşən əməkdaşlıq ölkələrimizə daha çox iqtisadi faydalar verməkdədir. Azərbaycan həm də Avropanın enerji təhlükəsizliyinə böyük töhfə verir.

Sonra Prezident İlham Əliyev sərgi ilə tanış olub.

DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
www.baki-xeber.com
Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

**«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -**

**Abunə!**

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

## Azərbaycan səfiri "The İndependent" qəzetinə Mxitaryanla bağlı etiraz məktubu göndərdi

**Azərbaycanın Birləşmiş Krallıqdakı səfiri Tahir Tağızadə "The İndependent" qəzetində 25 may 2019-cu il tarixində Conatan Lyunun müəllifliyi ilə dərc edilmiş "Henrix Mxitaryan: Bakı və nə səbəbdən idman və siyasət bir-birindən ayrıla bilməz" məqaləsinə cavab hüququndan istifadə edərək, həmin qəzetin Baş redaktoruna açıq məktub ünvanlayıb.**



Xarici İşlər Nazirliyindən baki-xeber.com-a verilən məlumata görə, məktubda müəllifin bəzi məsələlərə "tarixi" baxımdan toxunmadan öncə tarixi öyrənməli olduğu tövsiyə edilir, Bakıda UEFA Avropa Liqası ilə bağlı bütün idmançılara və azarkeşlərə təhlükəsizlik zəmanətinin verildiyi xatırladılır.

Məktubunda səfir Ermənistanın Azərbaycana qarşı təcavüz və etnik təmizlənmə siyasətinin yürütdüyünü, Xocalı soyqırımını törətdiyini və indiyə kimi beynəlxalq ictimaiyyətinin tələblərinə məhəl qoymadığını vurğulayır və müəllifi əsl tarixi yanaşmaya dəvət edərək, BMT TŞ-nin 1993-cü ildə qəbul etdiyi 4 qətnamə ilə yaxından tanış olmağa çağırır.

Səfir, həmçinin müəllifə, qondarma "şahidlər"ə və naməlum "sorğular"a istinad etməkdənsə, daha etibarlı mənbələrə müraciət etməsini məsləhət görür və bu xüsusda konkret nümunələr göstərir.



# Donald Tramp Azərbaycan Prezidentinə "Ölkənizin uğurlarını genişləndirməyin əsl vaxtıdır" yazdı...

**Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevə Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin keçirilməsinin 26-cı ildönümü ilə əlaqədar ən xoş arzularını çatdırıb.**

"Trend"in məlumatına görə, D.Tramp deyib:

"Hörmətli cənab Prezident.

Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin keçirilməsinin 26-cı ildönümü ilə əlaqədar ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Azərbaycan özünün tarixində bugünkü qədər firavan və qlobal iqtisadiyyata bağlı olmamışdır. Cənub Qaz Dəhlizi daxil olmaqla, Azərbaycanda hasil olunan neft və qaz dünya enerji bazarlarında sabitliyi artırmaqda davam edir.

Türkmənistan və Şərqi Aralıq dənizi hövsəsi ölkələri kimi digər potensial təhcizatçılarla tərəfdaşlıq quraraq Azərbaycan daha böyük liderlik rolu oynaya bilər. Ölkənizin uğurlarını genişləndirməyin əsl vaxtıdır.

Amerika Birləşmiş Ştatları xarici sərmayələrin cəlb edilməsi və innovasiyaların təşviqinə xidmət edəcək iqtisadi islahatların davam etdirilməsində səylərinizi dəstəkləyir. Azərbaycanın iqtisadi uğuru bütün regiona sabitliyin gətirilməsinə yardım edəcəkdir.

**Mən birgə səylərimizlə Cənubi Qafqazın daha da dinc, demokratik və firavan olması üçün əməkdaşlığımızın davamlı olmasını arzulayıram".**



# Hikmət Hacıyev futbolun şiyasiləşdirilməsi cəhdlərini İtaliya mətbuatına izah etdi

**İtaliya KİV-nə müsahibə verən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev 29 may tarixində Avropa Liqasının Bakıda keçiriləcək final oyununa "Arsenal" komandasının futbolçusu Henrik Mxitaryanın gəlməyəcəyi məsələsi ətrafında yaranmış vəziyyətə münasibət bildirib.**

"Gəlməməklə bağlı qərar onun və klubunun qərarıdır. Biz Azərbaycan olaraq bəyan etmişik ki, Mxitariyan da daxil olmaqla, Bakıda oynamağa gələn bütün futbolçuların təhlükəsizliyinə zəmanət verəcəyik. Təəssüf ki, futbolun siyasiləşdirilməsi tendensiyasını və ya cəhdlərini görürük ki, bu da qəbuledilməzdir. Futbol, ümumiyyətlə idman siyasətdən uzaqdır və siyasiləşdirilməməlidir. Bu xüsusda biz Azərbaycana qarşı informasiya müharibəsini görürük. Hər iki kluba, "Arsenal" və "Çelsi"yə uğurlar arzu edirik. Bütün Avropa qitəsində futbolun əsl dəyərlərinin təşviq edilməsinin və şəxsi məqsədlər üçün futbolu siyasiləşdirən elementlərin qarşısının alınması üçün birlikdə çalışmağın tərəfdarıyıq", deyə Hikmət Hacıyev bildirib.

Azərbaycan və Ermənistan arasında münaqişənin mövcud olduğunu, lakin nə futbolun, nə də Mxitaryanın hansı millətdən olmasının bununla əlaqəsinin olmadığını və onun futbolçu kimi Azərbaycana gələ biləcəyini deyən Hikmət Hacıyev əlavə edib: "Ermənistan Azərbaycana qarşı müharibəni davam etdirir və Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayır. 1 milyon azərbaycanlı etnik təmizləməyə məruz qalıb. ABŞ, Fransa və Rusiya vasitəçi qismində münaqişənin sülh yolu ilə həlli üçün çalışır. Azərbaycan bu səyləri dəstəkləyir.

Beynəlxalq ictimaiyyətlə birlikdə tezliklə münaqişənin həlli yollarına nail olmağa və Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərinin işğalına son qoymasına çalışırıq".

**Müsahibə İl Sole 24 Ore, Libero Quotidiano, İl Tempo, Affari İtaliani, İl Fogliettone, Quotidiano, Corriere di Siena, Corriere di Rieti, Corriere di Arezzo, Corriere di Viterbo, Corriere dell'Umbira, Unione Sarda, Virgilio, Yahoo Notizie kimi mətbuat orqanlarında dərc edilib.**




# ABŞ Dövlət Departamenti "Cənub Qaz Dəhlizi"ni bir daha qətiyyətlə dəstəklədi

**"Cənub Qaz Dəhlizi" Avropanın enerji nəqlinin şaxələndirilməsi üzrə səylərinin reallaşdırılmasında həlledici rol oynaya bilər.**

"Trend"in məlumatına görə, bunu ABŞ-ın Dövlət katibi köməkçisinin birinci müavini Kent Loqston XXVI Beynəlxalq "Xəzər Neft və Qaz" sərgi və konfransı zamanı deyib.

O bildirib ki, "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşdırılmasında Azərbaycanın uğurları ölkəyə yeni və etibarlı gəlir mənbəyi təqdim edir:

"ABŞ bu layihəni qətiyyətlə dəstəkləyir. Biz qəbul edirik ki, bu layihə Avropanın enerji nəqlinin şaxələndirilməsi üzrə səylərinin reallaşdırılmasında həlledici rol oynaya bilər".

**K.Lonqston əlavə edib ki, ABŞ bundan sonra "Cənub Qaz Dəhlizi" layihəsini dəstəkləyəcək: "Biz Azərbaycanda enerji sektorunun inkişafı və onun dünya bazarlarına çıxışının təmin olunmasının tərəfdarıyıq".**

**"Dünyada, bölgədə yeni təhlükə mənbələri üzə çıxır, yeni çağırışlar meydana gəlir". Bunu Prezident İlham Əliyev Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə rəsmi qəbulda deyib.**

# Azərbaycan üçün yeni regional və qlobal təhlükələr - ölkənin sığortası niyə etibarlı sayılır...



*"Ölkə Prezidenti düşünülmüş daxili və xarici siyasət kursu həyata keçirir"*

## *Fikrət Sadıqov: "Azərbaycan mürəkkəb proseslərin getdiyi dünyada öz maraqlarına cavab verən xarici siyasət yürüdür"*

Ölkə başçısının sözlərinə görə, 1993-cü ilə qədər müstəqilliyimiz formal xarakter daşıyırdı, ölkəmiz müstəqil siyasət apara bilmirdi: "Heydər Əliyevin xalq qarşısında xidmətlərindən biri də o idi ki, Azərbaycan əsl müstəqillik yoluna qədəm qoydu. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə çox ciddi islahatlar aparılmağa başlanmışdır. Nizami ordu yaradılmışdır, ölkəmizə böyük həcmdə xarici sərmayə gəlməyə başlamışdır, dövlətçiliyin əsasları qoyulmuşdur, azərbaycançılıq ideologiyası rəsmi ideologiya kimi qəbul edilmişdir. Bir sözlə, məhz o illərdə Azərbaycanın strateji inkişaf istiqamətləri müəyyən edildi. Bu gün Azərbaycan bu strateji inkişaf istiqamətlərini əsas tutaraq bölgədə, dünyada dəyişən vəziyyətə uyğun olaraq öz inamlı siyasətini aparır".

Ölkə başçısının fikrincə, o vaxtdan bu günə qədər çox böyük işlər görülüb: "Ancaq, eyni zamanda, dünya da, bölgə də dəyişib. Dünyada, bölgədə yeni təhlükə mənbələri üzə çıxır, yeni çağırışlar meydana gəlir. Əlbəttə, biz həmişə çalışırıq və çalışmalıyıq ki, ölkəmizi mümkün olan risqlərdən qoruya biləkl. Son illərin təcrübəsi onu göstərir ki, biz buna müvəffəq ola bilmişik".

Görünən odur ki, Azərbaycan regionda və dünyada yaranan bu təhlükələrdən özünü qoruya bilir. Maraqlı olan məqam odur ki, Azərbaycan regional və qlobal təhlükələrdən özünü necə sığortalayır? Buna necə nail ola bilir?

**Sözügedən məsələyə aydınlıq gətirən keçmiş diplomat, politoloq Fikrət Sadıqov bunu bir sıra faktorlarla ələqələndirdi:** "Reallıq ondan ibarətdir ki, dünyada hazırda Rusiya ilə Qərb arasında geosiyasi qarşıdurma var. Biz bilirik ki, Azərbaycana yaxın regionda çox təhlükəli hadisələr baş verir. O cümlədən, Yaxın Şərq, Suriya və İranla bağlı vəziyyət xeyli gərginləşib. Bir sıra terrorçu qruplaşmalar nüvə silahı əldə etməyə çalışırlar. Dünyada terror hadisələri və separatçılıq baş alıb gedir. Azərbaycan isə belə mürəkkəb proseslərin getdiyi dünyada öz maraqlarına cavab verən xarici siyasət yürüdür. Nəticədə regionda və dünyada yaranan təhlükəli proseslərdən özünü qoruya bilir. Ölkə Prezidenti düşünülmüş daxili və xarici siyasət kursu həyata keçirir. Beynəlxalq münasibətlər sistemində bizim bu siyasətimiz yüksək qiymətləndirilir. Baxın, ABŞ Prezidenti Donald Tramp iki dəfə Prezident İlham Əliyevə məktub ünvanlayıb. Bunlardan biri Respublika Günü, digəri isə Azərbaycanda keçirilən beynəlxalq neft-qaz sərgisi ilə bağlı olub. Məktubda qeyd olunur ki, enerji məsələlərində Azərbaycan üstün rol oynayır. Bir sıra dövlətlərin enerji təminatında böyük rol oynayan dövlətə çevrilir. Əlbəttə, bütün risq və təhlükələrdən tam sığortalanmaq çətindir. Ancaq Azərbaycan bunu edir və etməyə çalışır. Hesab edirəm bundan sonra da əlimizdən gələni etməliyik ki, yaranan risq və təhlükələrdən özümüzü qoruyaq".

***Vidadi ORDAHALLI***

**"Bizə qarşı hücumların əksəriyyətinin arxasında erməni lobbisi və onlarla müttəfiq olan bəzi yerli, özünü müxalifət adlandıran qruplaşmalar durur". Bunu Prezident İlham Əliyev Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə rəsmi qəbulda deyib.**

# Azərbaycana qarşı informasiya müharibəsində inanılmaz "ittifaq" - xaricdə erməni lobbisi, daxildə radikallar... Prezident nəyi nəzərdə tutdu...




*"O üzdən, onların maraqları üst-üstə düşür"*

## *Azər Həsrət: "Belələri özlərini ermənilərə və erməni kimi adamlara satmış şəxslərdir"*

Ölkə başçısının sözlərinə görə, bu gün dünyada informasiya müharibəsi aparılır və hər bir vətəndaş bunu açıq-aydın görə bilir: "Azərbaycan uzun illərdir ki, informasiya müharibəsinin hədəfində dayanan ölkədir. Ölkə haqqında təhrif edilmiş, yalan məlumatlar, uydurma faktlar, saxta xəbərlər geniş vüsət alıb. Biz buna adekvat cavab verməliyik, öz həqiqətlərimizi dünyaya çatdırmalıyıq. Bizə qarşı hücumların əksəriyyətinin arxasında erməni lobbisi və onlarla müttəfiq olan bəzi yerli, özünü müxalifət adlandıran qruplaşmalar durur. Onların hədəfi Azərbaycanı ləkələməkdir, Azərbaycan haqqında təhrif edilmiş yalan məlumatlar yaymaqdır. Bu, informasiya müharibəsinin bir növüdür".

Prezident onu da qeyd edib ki, biz öz siyasətimizlə bütün bu yalanları, bütün bu böhtanları darmadağın edirik və etməliyik: "Çünki bu gün Azərbaycan reallıqları onu göstərir ki, ölkə inamla, sürətlə inkişaf edir. Bizə qarşı çoxşaxəli, məqsədyönlü və davamlı informasiya müharibəsi aparılırdı. Məqsəd Azərbaycanı ləkələmək, inkişafımıza zərbə vurmaq, cəmiyyətimizin ənənəvi dayaqlarını sarsıtmaqdır. Biz buna heç cür imkan verə bilmərik və imkan vermirik. Çünki biz müstəqillik yolu ilə gedirik".

Göründüyü kimi, Azərbaycana qarşı informasiya müharibəsində erməni lobbisi ilə yanaşı, özünü müxalifət adlandıran bəzi qruplaşmalar da fəallıq göstərirlər. Onlar, faktiki olaraq, birlikdə Azərbaycana qarşı fəaliyyət göstərirlər.

Maraqlıdır, bu iki qüvvənin Azərbaycana qarşı informasiya siyasətində onların hansı maraqları üst-üstə düşür?

**Sözügedən məsələyə aydınlıq gətirən media eksperti Azər Həsrət bununla bağlı bir sıra məqamlara toxundu:** "Azərbaycan əsasən erməni lobbisinə və ermənilərə işləyən mərkəzlərin informasiya hücumlarına məruz qalır. Ermənilərin bizə qarşı hücumları gözləniləndir.

Çünki onlar Azərbaycanın düşmənidir və ölkənin daha da irəli getməsini istəmirlər. O üzdən, ölkəmizi, xalqımızı gözdən salmaq üçün əllərindən gələni edirlər. Ancaq təəssüflər olsun ki, özünü azərbaycanlı sayan bəzi şəxslər də bu çirkin kampaniyada yer alırlar. Ermənilərin həmin anti-Azərbaycan təbliğatında rol almaqdadırlar. O adamlar əllərindən gələni edirlər ki, Azərbaycanı gözdən salsınlar, ölkəyə qarşı neqativ informasiyalar daha geniş tirajlansın. Təbii ki, bir insan öz ölkəsinə, dövlətinə qarşı bu qədər amansız mübarizə aparırsa, onun satılmış olduğunu deməyə bilmərik. Belələri özlərini ermənilərə və erməni kimi adamlara satmış şəxslərdir. O üzdən, onların maraqları üst-üstə düşür. Onlar azərbaycanlı adı daşısalar da, azərbaycanlı deyillər. Onların yəqin ki, qanları yoxlanarsa, qanlarının ermənilərlə qarışdığı aşkar olar. Yəni bunun başqa səbəbini tapa bilmirik. Şəxsən mən anlamaqda çətinlik çəkirəm. Məsələn, Avroliqa oyunları ilə əlaqədar Qərb mediasında ermənilərin dəstəyi və iştirakı ilə anti-Azərbaycan kampaniyası aparılır. Kampaniyanın məqsədi bəllidir. Bununla azərbaycanlıları vəhşi bir millət kimi dünyaya tanıtmaq istəyirlər. Azərbaycanın bu cür yarışlar üçün uyğun bir yer olmadığını sübut etməyə çalışırlar. Bunun başında ermənilər dursa da, məlum olur ki, bəzi azərbaycanlılar da ermənilərlə birlikdə fəaliyyət göstərirlər.

Sözügedən məsələlərlə bağlı "Nida" təşkilatının bir nümayəndəsi bir erməni ilə birləşib mənə qarşı çıxış edir. Deməyim odur ki, bu adamlar həqiqətən də satılmış antimilli ünsürlərdir. Prezident sözügedən adamlarla bağlı fikirlərində heç vaxt yanılmır.

**Ölkə başçısı onların kimliyini dəqiq ifadə edir. Cəmiyyətimiz bütün bunların fərqində olmalıdır. Bir adam özünə azərbaycanlı deyərək, bir erməni ilə birləşib Azərbaycana qarşı hücum edirsə, deməli, bunun arxasında çirkin məqsədlər var".**

***Vidadi ORDAHALLI***

# Ermənistanın KTMT ilə düz birillik ağılsız mübarizəsi rüsvayçı məğlubiyyətlə bitdi

**Belarusun nümayəndəsi Stanislav Zasın KTMT baş katibi vəzifəsinə namizədliyinin təsdiqlənməsi, demək olar ki, həllini tapıb. Artıq KTMT-yə üzv olan ölkələrin hamısı tərəfindən namizədliyi dəstəklənən Belarus nümayəndəsini Ermənistanın xarici işlər naziri də qəbul edib.**

*"Görünən budur ki, Paşinyanın ölkənin daxili ilə yanaşı, xaricdəki işləri də tam fiaskoya uğrayıb"*

***Daşdəmir Əliyev:** "Bununla bir daha sübut olundu ki, Ermənistan beynəlxalq qurumlarda təmsil olunmaq kimi etikanı hələ yaxşı mənimsəməyib"*



Görüşün nəticələri ilə bağlı erməni KİV-inin verdiyi məlumatdan belə nəticəyə gəlinir ki, Ermənistanın KTMT-nin baş katibi postu uğrunda apardığı mübarizə nəticə vermədi. Çünki Ermənistan geri çağırdığı Xaçaturovun yerinə öz nümayəndəsini təyin etmək istəsə də, üzv ölkələr buna icazə vermədilər. Bu namizəd təsdiq edildiyi təqdirdə, 2020-ci il yanvarın 1-dən KTMT baş katibinin vəzifələrini Stanislav Zas icra edəcək.

Ermənistanın öz nümayəndəsi Yuri Xaçaturovu geri çağırması ilə açıq qalan KTMT baş katibliyi məsələsi bununla da öz həllini tapacaq. Paşinyan dəfələrlə bəyan edib ki, Ermənistan üçün KTMT baş katibliyi vəzifəsi deyil, formal hərbi-siyasi blokda hansı münasibətlərin hökm sürəcəyi maraqlıdır. Əslində, blok üzvlərinin Ermənistana münasibəti nöqteyi-nəzərdən bu ölkədə narahatlıq da inkar edilə bilməz. Baş verən proses birmənalı olaraq Ermənistanın KTMT-nin baş katibliyi uğrunda bir il müddətində apardığı mübarizədə tam məğlubiyyətə uğradığı kimi qəbul edə bilərikmi?

**Hərbi ekspert Daşdəmir Əliyev qəzetimizə bildirdi ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında baş katib vəzifəsinə Belarus Təhlükəsizlik Şurasının katibi Stanislav Zasın təyin edilməsi məsələsi çoxdandır müzakirə olunur:** "Lakin burada ziddiyyət doğuran məsələ özü sayəsində yaranan boş vəzifəyə Ermənistanın iddia etməsi ilə bağlı idi. Xaçaturovun Ermənistanın öz istəyi ilə geri çağırılmasından sonra ittifaq üzvləri rotasiya prinsipi ilə təşkilatın tam hüquqlu rəhbərinin seçilməsinə qərar veriblər. Həmin qərara görə, Ermənistandan sonra əlifba sırasına görə Belarus nümayəndəsi baş katib təyin edilməli idi.

Baş katib vəzifəsinə ən çox ehtimal edilən namizəd Belarus Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zasdır. 2015-ci ildən etibarən 54 yaşlı general-mayor Zas Belarus Təhlükəsizlik Şurasına rəhbərlik edir və KTMT-nin işini yaxşı bilir. O, rəsmi olaraq KTMT Təhlükəsizlik Şurası Katibləri Komitəsində təmsil olunur.

Ermənistan Yuri Xaçaturovu geri çağırdıqdan sonra KTMT baş katibinin vəzifəsi boş qalıb və planlaşdırılan 3 il əvəzinə, yalnız bir il yarım vəzifəsini icra edib.

Yuri Xaçaturov Ermənistanda 1 mart 2008-ci il konstitusiya quruluşunu devirməkdə ittiham olunaraq həbs edilmişdi. Geri çağırma prosesi ötən ilin noyabrın 2-də tamamlanıb. Həmin gündən etibarən baş katibin müavini olan Valeri Semerkov onun vəzifəsini icra etməyə başlayıb. Bununla bir daha sübut olundu ki, Ermənistan beynəlxalq qurumlarda təmsil olunmaq kimi etikanı hələ yaxşı mənimsəməyib. Xatırladım ki, Ermənistan Astanada keçirilən sammitdə Qazaxıstan və Belarusun Zası baş katib seçmək təklifinə qarşı çıxmışdı. Görünən budur ki, Paşinyanın ölkənin daxili ilə yanaşı, xaricdəki işləri də tam fiaskoya uğrayıb".

***Məhəmmədəli QƏRİBLİ***

# Ölkənin ən iddialı iki radikal müxalifəti Rəsulzadənin məzarına ayrılıqda, həm də cəmi 400 nəfərlə getdilər...

**Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 101-ci ildönümü ilə əlaqədar müxalifət partiyaları və vətəndaş cəmiyyətinin fəalları Məhəmməd Əmin Rəsulzadənin Novxanıdakı abidəsini ziyarət ediblər. Yürüşdən əvvəl onlarla polis arasında müəyyən gərginlik də yaşanıb.**



*"Ümummilli mahiyyət daşıyan tədbirlərdə süni konfrantasiyalara getmək, səs-küy yaratmaq da qəbul edilmir"*

***Rəfael Becanov:** "Bu, bütövlükdə, müxalifət adına xələl gətirən məsələdir"*

Maraqlıdır ki, digər bir radikal müxalif təchizatı olan Milli Şuranın da yürüşü zamanı polislə aksiyaçılar arasında qarşıdurma baş verib, bir neçə nəfər polisə aparılıb.

Ən maraqlısı isə budur ki, ölkənin ən iddialı müxalif qurumları olan bu iki təşkilat birlikdə deyil, ayrı-ayrı vaxtlarda M.Ə.Rəsulzadənin abidəsini ziyarət ediblər. Verilən rəsmi məlumata görə, 28 may aksiyasına hər iki qurumudan cəmi 400 nəfər tərəfdar qatılıb. Keçirilən aksiya bir çox sualları ortya çıxarır. Niyə bu cür əlamətdar gündə müxalif qurumları izdihamlı olmayan aksiyalarını belə təklikdə keçirməkdə maraqlıdırlar? Bu cür gedişlər edən və ətrafında çox az sayda adam olan qurumların siyasi perspektivinə nə dərəcədə ümidli yanaşmaq olar?

**AXCP adına iddialı olan qanadlardan birinin funksioneri Rəfael Becanov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bizim bu cür məsələlərlə bağlı hər zaman bir mövqeyimiz olub:** "Müxalifət ümummilli mahiyyət daşıyan müəyyən tədbirlərlə bağlı tamamilə fərqli mövqe tutmalıdır. Heç bir vəchlə həmin tədbirlər vasitəsilə öz siyasi ambisiyalarını ifadə etməməlidir. Ən əsası da bu cür tədbirlərdə bütün müxalif qüvvələr birgə olmalıdır. Təəssüf ki, bəzi qurumların ambisiyası səbəbindən biz buna nail ola bilmirik. Bu sırdan olan təbirlər kimi 28 may - Respublika Gününü, Xocalı faciəsi və 20 Yanvar faciəsinin ildönümlərini aid edə bilərik. Sanki bu tədbirlərə tək qatılmaqla hər kəs "müxalifət mənəm" kimi mesaj vermək istəyir. Azərbaycan müxalifətinin ən böyük problemlərindən biri məhz birləşə bilməməkdir. Dediyiniz tədbirə də yaxşı olardı ki, yalnız Müsavat və Milli Şura yox, bütün müxalif qurumlar birgə qatılardı. Yaxşı bir bayram törəni keçirərdik. Görürsünüz ki, bu alınmayanda da tədbirdə kütləviliyi təmin etmək olmur. Onlar bundan artıq sosial baza toplamağa qadir deyillər. Çünki bu cür ayrıseçkiliklərlə müxalifəti pərən-pərən salıblar. Nəticə göz qabağındadır. Hesab edirik ki, bu, bütövlükdə, müxalifət adına xələl gətirən məsələdir. Ümummilli mahiyyət daşıyan tədbirlərdə süni konfrantasiyalara getmək, səs-küy yaratmaq da qəbul edilmir. Hər kəsin siyasi xətti özünə aid olmalıdır. Bunun deyilən mahiyyətli tədbirlərə heç bir aidiyyəti olmamalıdır.

Biz sözügedən tədbirləri xalqın tədbiri kimi qeyd etməliyik. Bunu kimsə inhisara ala bilməz. Biz bayramı bayram törəni kimi, hüznü də hüznə uyğun şəkildə qeyd etməliyik. Ancaq görürük ki, bəzi siyasi təşkilatlar öz maraqlarını önə çəkmək üçün hətta ən müqəddəs adlardan belə istifadə edirlər. Bunlar yolverilməzdir".

***Məhəmmədəli QƏRİBLİ***




# "7 rayon qaytarılır, Azərbaycan Ermənistanın iqtisadi blokadasını aradan qaldırır"

*Kazan prinsipləri əsasında danışıqlar gedir*

**Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar Kazan psinsipləri əsasında aparılır. "Trend"in məlumatına görə, bunu Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov "Azərbaycan Avropa məkanında" adlı konfransda deyib.**

Onun sözlərinə görə, hazırda Azərbaycanda 1 milyon qaçqın və məcburi köçkün var. BMT-nin Təhlükəsizlik Şurası, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olması barədə dəfələrlə qətnamə qəbul edib.

S.Markov əlavə edib ki, indiyədək heç bir ölkə Dağlıq Qarabağı ayrıca müstəqil dövlət kimi tanınmayıb: "Dağlıq Qarabağ münaqişəsi dondurulub, çünki burada nə silahlı qüvvələr hərəkət edir, nə də sülhməramlı qüvvələr yerləşdirilib. Amma bunu dondurulmuş da hesab etmək olmur, çünki burada hadisələr baş verir. 2016-cı ilin aprelində həqiqətən müharibə baş verdi, təmas xəttində, uzun müddət olmasa da, 4 gün ərzində yüzlərlə əsgər və mülki əhali həyatını itirdi. Lakin sonradan Moska Azərbaycan və Ermənistan rəhbərliyinə bir necə dəfə zəng etdi ki, müharibə dayandırılsın".

İnstitut direktorunun sözlərinə görə, Ermənistan yalnız Dağlıq Qarabağı deyil, onun ətrafındakı 7 rayonu da nəzarətə götürüb: "Bu rayonlarda etnik təmizləmə həyata keçirilib, əhali oradan köçürülüb. Münaqişənin həlli üçün ATƏT-in Minsk Qrupu yaradılıb, danışıqların aparılması üçün müəyyən addımlar atılıb, Rusiyanın təşəbbüsü ilə Kazan prinsipləri qəbul edilib. Özündə kompromis prinsipləri nəzərdə tutan Kazan prinsipinə görə, Ermənistan Azərbaycana işğal olunmuş 7 ətraf rayonu geri qaytarır. **Azərbaycan Ermənistan və Dağlıq Qarabağ ətrafından iqtisadi blokadanı aradan qaldırır, daha sonra Azərbaycan Dağlıq Qarabağa müvəqqəti status verir, orada hərbçilər çıxarılır. Hazırda Kazan psinsipləri ətrafında danışıqlar aparılır".**



**Qafqaz bölgəsi tarixən bütün dünya üçün maraq kəsb edib. Xüsusən də Azərbaycan, burada mövcud olan multikultural, tolerant mühit xaricilərin diqqətindən yayınmayıb. Qafqazın, onun aborigen sakinlərinin tarixini öyrənmək, buradakı siyasi şəraiti analiz edib qiymətləndirmək xarici qafqazşünaslar üçün hər zaman cəlbedici olub.**

# Bakıda II Qafqazşünaslıq konfransı və Ermənistanın iştirak məsələsi...

***Qasım Hacıyev:** "Erməni alimləri bu dəfə də Qafqazşünasların Beynəlxalq Forumunda iştirak etmədilər"*



*"Forumda çıxış edən xarici alimlər çox açıq şəkildə Ermənistanın haqsız mövqeyini ciddi tənqid etdilər"*

Azərbaycanda Qafqazşünasların Beynəlxalq Forumunun keçirilməsi artıq ənənəyə çevrilməkdədir. Məlum olduğu kimi, 23-24 may tarixlərində Bakıda Qafqazşünasların II Beynəlxalq Forumu keçirildi.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun təşkilatçılığı ilə keçirilən forumda dünyanın bir sıra ölkələrindən nüfuzlu qafqazşünaslar iştirak ediblər. Öz işini 12 bölmə iclasında quran forumda "Qafqaz regionunda ictimai-siyasi proseslər", "Qafqazda münaqişələr və terror", "Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü", "Qafqaz ölkələrinin qarşılıqlı münasibətləri, xarici siyasəti və böyük dövlətlərin region siyasəti", "Qafqazda geosiyasi şərait", "Qafqazda sivilizasiyaların və mədəniyyətlərin qarşılıqlı əlaqəsi" mövzularında müzakirələr aparılıb.

Azərbaycanda keçirilən Qafqazşünasların II Beynəlxalq Forumunda Ermənistan alimləri təmsil olunubmu?

**AMEA-nın Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, keçən forumda olduğu kimi, bu dəfə də ermənilər tədbirə qatılmayıblar.** Q.Hacıyevin sözlərinə görə, Ermənistan Qafqaza bir yamaqdır və onlar bu bölgənin aborigen sakinləri deyillər. Erməni alimlərinin uydurduqları yalanların, yaratdıqları saxta tarixin bütün dünya qafqazşünasları tərəfindən anormal qəbul edildiyini deyən Q.Hacıyev hesab edir ki, erməni alimlərinin foruma qatılmamasının səbəbi onların ifşa edilmək əndişəsi, qorxusu ilə bağlıdır. "Bilirsiniz ki, bu forum artıq ikinci dəfədir keçirilir. Forum beynəlxalq əhəmiyyətli tədbir olduğu üçün, bura dünyanın müxtəlif ölkələrindən görkəmli tarixçilər, elm adamları, qafqazşünaslar qatılırlar. Qafqazşünasların I Beynəlxalq Forumu da maraqlı keçmişdi, ancaq ikinci forum ondan da maraqlı və möhtəşəm keçdi. Erməni alimləri bu dəfə də Qaqazşünasların Beynəlxalq Forumunda iştirak etmədilər. Bunun da səbəbi odur ki, onlar uydurduqları yalanların ifşa edilməsindən qorxurlar. Tədbirdə müzakirə edilən məsələlərdən biri Qafqazda münaqişələr və terror mövzusu idi. Bütün dünya bilir ki, Qafqazda sülhün pozulması, müxtəlif terror hadisələrinin törədilməsi birbaşa Ermənistanla bağlıdır. Regionda dincliyi, sülhü, əminamanlığı ermənilər pozurlar. Bu, faktdır və dünya alimləri də bunu çox yaxşı bilirlər. Ermənilərin foruma dəvət edilməsi məsələsinə gəlincə, biz heç bir ölkəni ayrı-ayrılıqda dəvət etməmişik. Biz Qafqazşünasların II Beynəlxalq Forumunun keçirilməsi ilə bağlı elan vermişik və bütün alimlər də bu elanlar haqda məlumat alaraq tədbirə qatılıblar. Görünür, erməni alimləri qeyd etdiyim səbəblərə görə foruma qatılmayıblar. Əlbəttə, qatılmaq istəsəydilər, digər ölkələrin alimləri kimi onlara da şərait yaradılardı".

Q.Hacıyev qeyd etdi ki, forumda Azərbaycanla yanaşı, Rusiya, Türkiyə, ABŞ, Belarus, Şimali Makedoniya, İran, Qazaxıstan, Özbəkistan, Ukrayna və Gürcüstandan 220-dən çox alim və tədqiqatçı iştirak edib.

"Amerikadan tutmuş, Özbəkistana qədər bir çox ölkədən çox nüfuzlu alimlər forumda iştirak edirdilər. Bu forumda bir sıra vacib məsələlər müzakirə olundu. Qafqazın ümumi siyasi vəziyyəti geniş təhlil edildi. Burada Qafqazla bağlı tarixi, iqtisadi, siyasi, strateji, sosial məsələlərə daha çox yer ayrıldı, inkişaf istiqamətləri müəyyənləşdirildi. Yeni forumda siyasi analitik səpkili çıxışlar oldu. Hər bir xarici ölkədən gələn nümayəndə heyətinin üzvlərindən biri, o cümlədən də bizim alimlər 10 dəqiqəlik məzmunlu çıxış etdilər. İnstitutumuzun direktoru, AMEA-nın müxbir üzvü Musa Qasımlı ətraflı danışdı.

Forumda çıxış edən xarici alimlər Qarabağ problemindən də danışdılar. Xarici alimlər Qarabağ problemindən danışarkən Ermənistanın həyata keçirdiyi təcavüzkarlıq, işğalçılıq siyasətini pislədilər, Azərbaycanın haqq işini müdafiə etdiklərini dedilər. Gürcüstandan gələn professor Quram Markulya, Rusiyadan gələn professor Oleq Kuznetsov, Belarus alimi Vyaçeslav Linkovski, Ukrayna alimi Oleq Kubçin Qafqazın mövcud vəziyyəti, eləcə də Ermənistanın Azərbaycan torpaqlarını haqsız olaraq işğal altında saxladığına dair çox diqqətçəkən fikirlər söylədilər. Forumda çıxış edən xarici alimlər çox açıq şəkildə Ermənistanın haqsız mövqeyini ciddi tənqid etdilər. Bu onu göstərir ki, artıq dünya qafqazşünasları ermənilərin saxtakarlığına qarşı barışmaz mövqedə dayanırlar. Bu forumun əhəmiyyəti çox böyükdür və bu bizə imkan verir ki, öz həqiqətimizi dünyaya daha yüksək səviyyədə çatdıraq" - deyə bildirən Q.Hacıyev, həmçinin, vurğuladı ki, forumda məruzə edən xarici alimlərin məruzələri də Qafqazşünaslıq İnstitutu tərəfindən nəşr ediləcək.

***İradə SARIYEVA***

# Türkiyə və Rusiyanın S-400 sövdələşməsinə Bakıdan, İrəvan və Ankaradan fərqli reaksiyalar...

**Növbəti bir ay ərzində Rusiyanın Türkiyəyə S-400 hava hücumundan müdafiə sistemini tam şəkildə çatdıracağının dəqiqləşməsi fonunda regionda artıq yeni vəziyyətin yaranması müşahidə olunmaqdadır. Belə görünür ki, yaşananlar fonunda ölkəmizin əsas strateji müttəfiqi olan Türkiyə ABŞ-la iqtisadi, siyasi, hərbi müstəvidə kəskin ziddiyyətlər yaşayacaq.**

Bunun əvəzində Rusiya - Türkiyə yaxınlaşması mahiyyət etibarilə yeni xarakter alacaq və bu da Yaxın Şərqdə, Qafqazda, Orta Asiyada və bir sıra digər coğrafi məkanlarda hadisələrin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərəcək.

Burada diqqət çəkən əsas məqam ondan ibarətdir ki, konkret olaraq Qafqaz dövlətlərinin Rusiya - Türkiyə yaxınlaşmasına münasibətləri fərqlidir. Azərbaycan Ankara ilə Moskvanın yaxınlaşmasını əvvəlcədən alqışlayır. Gürcüstan hadisələrə elə də reaksiya vermir, lakin bütövlükdə proseslərin gedişindən narazı deyil. Ermənistan isə tamamilə fərqli fikirdədir. İrəvan Rusiya ilə Türkiyənin münasibətlərinin yaxınlaşmasını özünə təhlükə kimi qiymətləndirsə də, real heç bir addım ata bilmir. Amma bir məsələ dəqiqdir ki, Ermənistan iki ölkənin münasibətlərinin indiki inkişaf axarından dəhşətli dərəcədə narahatdır. Erməni analitiklər bu fikirdədirlər ki, Türkiyə ilə yaxınlaşma fonunda Kreml Ermənistanın təhlükəsizliyinin müdafiəsində ardıcıl olmaya bilər. Onlar hesab edirlər ki, bu, daha çox geosiyasi əhəmiyyətli Türkiyə və Azərbaycan faktoru ilə bağlıdır. Belə vəziyyətdə Ermənistan Rusiyanın Türkiyəyə S-400 hava hücumundan müdafiə sistemi verməsini qəbul edə bilmir. Amma bu məsələdə, təbii ki, İrəvanı saya salan yoxdur. Əksinə, Rusiya prezidenti Vladimir Putinin mətbuat katibi Dmitri Peskov bildirib ki, sözügedən zenit raket komplekslərinin Türkiyəyə tədarükü Ankaranın xahişi ilə əvvəlcədən planlaşdırılan vaxtdan daha tez həyata keçirilir: "Komplekslərin tədarükü Türkiyə tərəfinin xahişi ilə əvvəlcədən planlaşdırılandan daha tez bir zamanda həyata keçirilir. Gün, ay kimi nüanslara gəldikdə isə, bu sual bizə ünvanlanmalı deyil. Biz bununla məşğul olmuruq. Orada hər şey plana uyğun gedir, heç bir gecikmə yoxdur. Hər şey normaldır".




Hazırda hadisələrin bu səpkidə inkişafından ciddi narahat olan tərəflərdən biri isə ABŞ və bəzi ABŞ rəsmilərini bu fonda qızışdıran erməni lobbisidir. Məsələyə yenidən münasibət bildirən ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Morqan Ortaqus qeyd edib ki, rəsmi Vaşinqton Ankaraya S-400 zenit-raket komplekslərinin ciddi mənfi nəticələrinin olacağı barədə xəbərdarlıq edib. O əlavə edib ki, bu zenit-raket komplekslərinin alınması Türkiyənin ABŞ və NATO ilə müdafiə sahəsində münasibətlərinə ciddi təsir edəcək. ABŞ-ın CNBC telekanalı öz mənbələrinə istinadən bundan əvvəl məlumat yayıb ki, Birləşmiş Ştatlar Türkiyəyə S-400 zenit-raketləri ilə bağlı ultimatum verib. Bildirilir ki, Ankara iki həftə ərzində Moskva ilə sövdələşməni pozmalı və Amerikanın "Patriot" raket əleyhinə müdafiə sistemlərini almalıdır. Əks təqdirdə ABŞ Türkiyəni "F-35" proqramından çıxaracaq. Amerika hökuməti Türkiyəni vəd olunmuş yüzlərlə qırıcıdan məhrum etməklə yanaşı, ona sanksiyalar tətbiq etməklə də hədələyib. "Reuters" agentliyi də bildirir ki, ABŞ Türkiyənin Rusiyadan tədarük edəcəyi S-400 hava hücumundan müdafiə sisteminə qarşı türk pilotların F-35 döyüş təyyarələri təlimlərini dayandıra bilər. Agentliyə müsahibə verən amerikalı rəsmilər Türkiyənin, ABŞ-ın bütün etirazlarına rəğmən, Rusiyadan silah almasına cavab olaraq bu variant üzərində ciddi düşündüyünü bildirib.

Qeyd edək ki, ABŞ S-400 hava hücumundan müdafiə kompleksinin Qərbin müdafiə şəbəkəsi ilə uyğunlaşmayacağını əsas gətirərək, Türkiyənin bu sistemdən imtina etməsini tələb edir. Amma Ankara artıq məsələnin bitmiş olduğunu vurğulayır. Eyni zamanda, Rusiya ilə bu xüsusda əməkdaşlığın dərinləşəcəyi qeyd edilir. Rusiyanın müdafiə naziri Sergey Şoyqu isə hətta qeyd edir ki, S-400-lərin çatdırılmasının ardınca Rusiya yeni S-500 hava hücumundan müdafiə komplekslərini Türkiyə ilə birgə istehsal edəcək. Nazir S-400 zenit raket komplekslərinin iyun ayında Türkiyəyə təhvil veriləcəyini deyib: "Bundan sonra Türkiyə ilə S-500 zenit raket kompleksini də ortaq istehsal edəcəyik. Bircə ədəd S-500 batareyası belə Türkiyənin bütün hava məkanını xarici hücumlardan qorumağa kifayət edər. Türkiyə özünün elan etdiyi iqtisadi bölgələrini Şərqi Aralıq dənizindən gələ biləcək Amerika təhdidlərindən müdafiə etmək iqtidarındadır. Çünki Türkiyənin əlində milli istehsalı olan "Hisar" hava hücumundan müdafiə batareyaları var. Amerika gecikdiyini yeni-yeni bilir. Lakin nə edirsə-etsin, Türkiyə öz torpaqlarına raket qalxanı yerləşdirəcək. Amerikanın həmlələri Türkiyənin dostu olan ölkənin hərəkətləri deyil. Bunu dünya öyrəndi. Türkiyə də artıq ABŞ-ın əmr verdiyi ölkə deyil. Tam müstəqil, yeni bir gücdür. Vaşinqton da bunu qəbul edəcək".

Baş verənləri şərh edən Türkiyənin "Takvim" qəzeti də yazır ki, belə vəziyyət Ankara və Moskvanı biri-birinə daha çox yaxınlaşdırır: "Onurğasını ABŞ-la Avropanın təşkil etdiyi qlobal sistem müstəqil Türkiyəyə eyni vaxtda həm xaricdən, həm də daxildən bərabər şəkildə hücum edir. Çoxyönlü mühasirə strategiyası izləyir. Nə üçün? Bilirlər ki, Avrasiya marşurutunda yer tutan Türkiyəni oyundan kənarlaşdıra bildikləri halda regiondakı varlıqlarını və yaxın coğrafiyamızdakı qanlı hegemonluqlarını davam etdirə bilərlər. Bu durumda Türkiyə yavaş-yavaş Avrasiyaya doğru meyl edir. Görünən budur ki, Rusiya ilə yaxınlaşma fonunda bu proses daha da dərinləşəcək. Bu isə böyük məkanlarda tam fərqli duruma yol açır". O da qeyd olunur ki, Türkiyənin qərarı həm də Yaxın Şərqdə post-ABŞ qaydalarına qarşıdır. Belə vəziyyət, yuxarıda qeyd olunduğu kimi, ABŞ-la yanaşı, artıq buradakı erməni lobbisinin də ciddi narahatlığına yol açıb.

**Çünki baş verənlər Ermənistan faktorunun Rusiya-Türkiyə yaxınlaşması fonunda Cənubi Qafqazda daha zəif duruma düşməsini şərtləndirir. İndilikdə proseslər elə məhz bu istiqamətdə də inkişaf edir.**

***Tahir TAĞIYEV***

# Trampın İlham Əliyevə Cümhuriyyət təbrikində Dağlıq Qarabağla əlaqəli fikrin mahiyyəti...

**Məlum olduğu kimi, 28 may - Respublika Günü ilə əlaqədar olaraq bir sıra dövlət başçıları, o cümlədən, ABŞ Prezidenti dövlət başçısı İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**




*"Əslində, Trampın bu mövqeyi yaxın perspektivdə Vaşinqtonda nəzərdə tutulan Qarabağ danışıqlarına hazırlıqla bağlı bir diplomatik jestdir"*

***Mübariz Əhmədoğlu:*** *"Bu onu göstərir ki, Azərbaycan Prezidentinin Dağlıq Qarabağ münaqişəsinin həllində roluna xüsusi önəm verilir"*

Tramp ölkə başçısına ünvanladığı məktubda iki dövlət arasında bir çox ortaq maraqlar üzərində qurulmuş güclü tərəfdaşlıq əlaqələrinin mövcud olduğunu bildirib: "Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi töhfələri və "Cənub Qaz Dəhlizi" təşəbbüsünü irəli sürməklə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində Sizin liderliyinizi dəyərləndirirəm. Azərbaycanda islahatlar istiqamətində, xüsusilə də qanunun aliliyi sahəsində Azərbaycan xalqının mənafeyinə xidmət edəcək və əməkdaşlığımızın dərinləşməsi üçün imkanlar yaradacaq bütün addımları alqışlayırıq".

Ən başlıca məqamlardan biri də Dağlıq Qarabağ münaqişəsinin həllində ölkə başçısının roluna verilən xüsusi önəmdir: "Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və dayanıqlı həlli istiqamətində ATƏT-in Minsk Qrupu prosesində Sizin şəxsi iştirakınızı təqdir edirik".

Bununla Tramp Azərbaycanın xarici siyasətinin çox mühüm bir məqamına işarə verir. Məsələ ondan ibarətdir ki, Azərbaycan rəhbərliyi balanslaşma siyasətini ancaq milli maraqlar üzərində qurur. Bu mövqedən baxdıqda, ölkənin xarici dövlətlərlə əməkdaşlığı ilə Dağlıq Qarabağ münaqişəsinin həllində ədalətli mövqe tutmaq arasında sıx bağlılıq görünür. Xarici siyasətin bu iki komponenti bir-birini tamamlayır. Sevindiricidir ki, Amerika rəhbərliyi İlham Əliyevin siyasi kursunun bu aspektinə xüsusi önəm verir.

Bütün bu deyilənlərin fonunda, Trampın Dağlıq Qarabağ məsələsinin həllində Prezident İlham Əliyevin şəxsi iştirakına xüsusi önəm verməsi nə ilə bağlıdır? Bunun arxasında nə dayanır?

**Məsələyə münasibət bildirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun fikrincə, bu, ABŞ-da keçirilməsi gözlənilən Qarabağ danışıqlarına bir işarədir:** "Bu onu göstərir ki, İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsinin həllində roluna xüsusi önəm verilir. Trampın bunu xüsusi qeyd etməsi təsadüfi deyil. Ötən il də Tramp Qarabağla bağlı bəyanat verdi. Bu dəfə bəzi məsələlərdə sanki mövqeyi bir qədər yumşalıb. Əslində, Trampın bu mövqeyi yaxın perspektivdə Vaşinqtonda nəzərdə tutulan Qarabağ danışıqlarına hazırlıqla bağlı bir diplomatik jestdir. Baxın, ötən il Tramp Dağlıq Qarabağ məsələsinə toxunandan sonra Birləşmiş Ştatlar tərəfindən bu istiqamətdə müəyyən səylər göstərildi. O vaxt ABŞ-ın Ermənistandakı səfiri Riçard Mills bəyanat verdi ki, ərazilər qaytarılmadan münaqişəni tənzimləmək mümkün deyil. Yəni, ən azından, Dağlıq Qarabağ ətrafında 7 rayonu qaytarın. Ondan sonra Con Boltonun regiona səfəri başladı. Bolton bildirdi ki, müstəqil siyasət aparmaq istəyirsinizsə, o zaman Qarabağ məsələsini həll edin. Ondan sonra digər ABŞ rəsmisi Kent Ermənistana səfər etdi. O da bənzər açıqlama ilə çıxış etdi. Ərazi bütövlüyünə xüsusi önəm verdi. ABŞ-ın Ermənistanda yeni səfiri bu günlərdə bəyan etdi ki, Dağlıq Qarabağ məsələsində müəyyən irəliləyişlər gözlənir. Fikrimcə, qarşıdakı ayda Qarabağ danışıqları ilə bağlı Vaşinqtonda təmaslar olacaq. Sözügedən fikirlərin arxasında bu niyyət də var".

***Vidadi ORDAHALLI***

# Qondarma "DQR"də Saakyanı devirmək üçün açıq şəkildə alyans yaradıldı...

**Ermənistan hakimiyyəti ilə qondarma "DQR" arasındakı ziddiyyət günü-gündən daha da dərinləşir. Dağlıq Qarabağdakı separatçı rejimin rəhbəri Bako Saakyanın açıq-aşkar Robert Köçəryanı müdafiə etməsi və nəticədə sabiq prezidenti həbsdən çıxarmasından sonra münasibətlər daha da gərgin mərhələyə keçib.**



*"Proses birbaşa Nikol Paşinyan tərəfindən dəstəklənir"*

***Hatəm Cabbarlı:*** *"Bu siyasi alyans Ermənistan - "DQR" münasibətlərindəki gərginliyin yeni səhifəsi kimi dəyərləndirilə bilər"*

Hətta belə məlumatlar da yayıldı ki, Xankəndideki güc rəhbərliyi erməni oliqarxları ilə birgə artıq Paşinyana qarşı qəsd hazırlayır.

Paşinyanın özü isə vəd edib ki, "Qarabağı əksinqilab ocağından inqilab ocağına çevirəcək". Bu da o anlama gəlir ki, Paşinyan Saakyanı hakimiyyətdən necə uzaqlaşdırmanın yollarını axtarır. Artıq belə bir prosesə start verildiyinə dair məlumatlar var. İşğal altında olan ərazimizdə "Miatsum" siyasi biliyi" özünün varlığını bildirib və bəyanatla çıxış edib.

Bəyanatda deyilir: "Biz, "Artsax" ermənilərinin nümayəndələri milli və dövlət məsuliyyətini rəhbər tutaraq, bir daha birləşmiş erməni suveren dövlətinin və "Artsax"da legitim dövlət hakimiyyətinin qurulmasının tamhüquqlu, ayrılmaz və bölünməz hissəsi olmaqla bağlı siyasi qətiyyətimizi təsdiq edirik. Birlik "Artsax"da, bütün Ermənistanda mili və dövlət quruculuğuna, təhlükəsizliyə zəmanət verən ümummilli hədəf və gündəmdir".

Bəyanata imza atanlar arasında "Sasna Tser"in və "Ramkavar Azatakan"ın yerli bölmələri də, "əfqanlar"ın yerli şöbələri və hətta "Qarabağ özünümüdafiə qüvvələri"nin ilk komandanı Arkadi Karapetyan da olub.

Yeni yaradılan "Miatsum" alyansının əsas hədəfi Saakyanı devirmək ola bilərmi?

**Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, qondarma qurumda yaradılan bu siyasi alyans Ermənistan - "DQR" münasibətlərindəki gərginliyin yeni səhifəsi kimi dəyərləndirilə bilər:** "Bu günə qədər Nikol Paşinyan Dağlıq Qarabağ siyasətinə fərqli aspektlərlə yanaşırdı. Ancaq qondarma rejimin sabiq və indiki "prezidentləri" Qukasyan və Saakyanın Köçəryanın həbsdən çıxarılması ilə bağlı göstərdikləri cabalardan sonra vəziyyət çox dəyişdi. Əvvəl onlar bununla bağlı yazılı müraciət etdilər, sonra isə birbaşa İrəvana gəlib, Köçəryanı həbsdən azad etdirdilər. N.Paşinyan Dağlıq Qarabağda cərəyan edən bu hadisələri yaxşı görür və hansı nəticələrə apara biləcəyini təxmin edir. Buna görə də təzyiq variantı kimi "Miatsum"un qurulmasına təkan verdi. Qondarma rejimdə ilk dəfədir müxalifət partiyaları və narazı olan bütün qüvvələr, hətta QHT-lər bir araya gələrək açıq şəkildə Saakyanı və onun idarəetməsini korrupsiyada, özbaşınalıqda ittiham edirlər. Böyük ehtimalla bu proses birbaşa Paşinyan tərəfindən dəstəklənir. Əsas hədəf də qondarma rejimin indiki və keçmiş rəhbərliyinin mövqeyinin zəiflədilməsinə yönəlib. Təxmin olunur ki, önümüzdəki günlərdə qondarma qurumun rəsmiləri bu məsələ ilə bağlı öz fikirlərini bildirəcəklər. Hətta bildirməsələr belə, mütləq mənada, yeni siyasi alyansa qarşı addımlar atacaqlar. Həmin fəaliyyət isə münasibətləri daha da gərginləşdirəcək. Mənzərəyə ümumi baxdıqda məlum olur ki, N.Paşinyan Köçəryanın azad edilməsindən sonra ona qarşı artan təzyiqləri müxtəlif vasitələrlə neytrallaşdırmağa çalışır. Önümüzdəki aylarda bu mübarizə açıq müstəviyə transformasiya olunacaq. Qondarma Dağlıq Qarabağ rejiminin öz daxilində gərginliyi artırmaqla Paşinyan diqqəti Ermənistandan bir qədər uzağa fokslamaq istəyir".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Elmar Məmmədyarovun məqaləsinə erməni nazirin cavabı - "...əvvəlki razılaşmaların bəzi nəticələrini yaxında göstərəcəyik"

**Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində yaxın tezlikdə mühüm dəyişikliklərin olması gözlənir. Hər halda, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun "Nezavisimaya gazeta"da dərc olunan məqaləsində səslənən fikirlərdən bu qənaətə gəlmək olur. Nazir məqaləsində vurğulayıb ki, Bakıda Ermənistanın yeni rəhbərliyindən Dağlıq Qarabağ münaqişəsinin tez bir zamanda nizamlanması üçün məsuliyyətli addımlar gözlənir.**

Məqalədə qeyd olunur ki, Azərbaycanın mövqeyi BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası yolu ilə respublikanın suverenliyinin və sərhədlərinin beynəlxalq səviyyədə tanınmasından ibarətdir: "Bu, Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının dinc və təhlükəsizlik mövcudluğunu təmin etməyə imkan verəcək. Sülh, çiçəklənmə və əməkdaşlıq şəraitində hər iki icma bölgənin cari və gələcək məsələlərini birgə həll edə biləcək və bu, Ermənistanla Azərbaycan arasında mehriban qonşuluq münasibətlərinin, eləcə də regionda sülhün və təhlükəsizliyin bərqərar olunması üçün əsas verəcək". Elmar Məmmədyarov əlavə edib ki, münaqişənin tez bir zamanda həlli üçün ciddi işlər görüləcək və bununla da danışıqların imitasiyasına yox, real danışıqlar prosesinə start veriləcək. Bunun ardınca Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanın verdiyi açıqlamalar xüsusi diqqət cəlb edir. Erməni nazir vurğulayır ki, Moskva və Vyanada Dağlıq Qarabağ münaqişəsi ilə bağlı baş tutmuş görüşlərdə əldə edilmiş anlaşmaların bəzi nəticələrini yaxında göstərmək mümkün olacaq: "Bundan sonra daha əhatəli bir nəticə göstərə biləcəyik, çünki bu mərhələdə əldə edilmiş anlaşmaların yerinə yetirilməsinə yönəlik proses davam edir".

Beləliklə, nazirlərin açıqlamalarından aydın olur ki, yaxın tezlikdə Qarabağ münaqişəsinin həlli istiqamətində nəticəsi olan danışıqlara şahidlik etmək mümkün olacaq. Azərbaycanın da əvvəldən istədiyi məhz real danışıqlar prosesinin aparılması və konkret nəticələrin əldə olunmasıdır. Ekspertlər bildirir ki, artıq yaranan şərait münaqişənin çözümü üçün Ermənistana real addımlar atılmasından başqa çıxış yolu qoymur. Rusiya və ABŞ kimi regional oyunçuların gedişi də artıq Ermənistan üçün ciddi təzyiqə çevrilir. Eyni zamanda Ermənistan daxilindəki mövcud vəziyyət də proseslərin gedişinə artıq əhəmiyyətli dərəcədə təsir göstərir. Rusiyanın "regnum.ru" portalı məsələnin bu tərəfinə nəzər salaraq qeyd edir ki, Ermənistanın hansısa uğura çatması məhz Qarabağ münaqişəsinin həllindən keçir. Əks təqdirdə "məxməri inqilab"ın süquta uğraması qaçılmazdır və bu, baş nazir Nikol Paşinyana da yaxşı məlumdur: "Ermənistanda Nikol Paşinyanın hakimiyyətə gəlişinin ildönümü ilə bir vaxta düşən bu yaxınlardakı hadisələr sıradakı siyasi gerçəklikləri üzə çıxarıb. Paşinyan hələ mayın 20-də respublikanın hərbi, məhkəmə və siyasi rəhbərliyinin qatıldığı müşavirədə ölkədə məhkəmə islahatı keçirmək üçün "cərrahi müdaxilə"nin gərəkdiyini bildirib. O, "inqilabın ikinci mərhələsi"nin başlandığını deyərək elan edib: "Konstitusiya islahatları, ya da ümumxalq referendumu keçirmək gərəkdirsə, onda bu yolla da gediləcək ki, son nəticədə müstəqil və düzgün məhkəmə sistemi olsun". Paşinyan daha öncə qanunverici və icra hakimiyyətini təzələyərək inandırıb ki, məhkəmə hakimiyyətinin işinə qarışmayacaq. Ancaq İrəvan məhkəməsi Ermənistanın keçmiş prezidenti Robert Köçəryan haqda həbs qətimkan tədbirini dəyişəndən sonra - özü də mövcud prosedur normalarını pozmadan - baş nazir konstitusiyanın və qanunvericiliyin başqa normalarını açıqca pozaraq hücuma keçdi, öz tərəfdarlarına məhkəmələri çevrələmək çağırışı ilə çıxış etdi. Hadisələrin belə ssenari üzrə sonrakı inkişafı hakimiyyətin ən önəmli qanadı kimi məhkəmələrin işinin təcridinə, ölkədə pozğunluq salmağa aparıb. Ya da əksinə, hakimiyyətin Paşinyan tərəfindən inhisara almasına, "demokratik" deyilən diktaturanın qurulmasına. Eyni zamanda, ölkənin birpalatalı parlamentində böyük çoxluğa malik olan icra hakimiyyəti başçısının bu alətdən yararlanmaq əvəzinə fəaliyyətdəki Konstitusiyadan yan keçərək yenidən kütləvi etirazlara söykənməyə başladığı faktı göstərir ki, o, parlamentdə mütləq dəstək almağa ümid etmir. Ermənistan Politoloqlar Birliyinin prezidenti Amayak Ovannisyanın hesab etdiyi kimi, "demokratik "pərdə"nin varlığı ilə hakimiyyətin fəaliyyət modeli dəyişməyəndə, siyasi partiyalar haqda yeni qanun qəbul edilmədən köhnə seçki qanunu saxlanırsa, başqa cür ola da bilməz".

Ermənistandakı hadisələr daha bir kombinasiyanı gün işığına çıxarıb. Ermənistanın KTMT, Avrasiya İqtisadi Birliyi üzrə tərəfdaşları rəsmi şərhlərdən vaz keçir. Halbuki, Qərbin reaksiyası dostcasınadır - ABŞ-ın Ermənistan səfirliyinin, AŞPA həmməruzəçilərinin bəyanatları bundan danışır. Məsələn, AB-nin Ermənistan səfiri Pyotr Svitalski bildirib ki, "geniş maliyyə dəstəyi ilə Ermənistanda texniki və konsultasiya yardımı vasitəsilə ədliyyənin dərin və hərtərəfli islahatında ona yardım etməyə hazırdırlar". Burada ziddiyyət bundadır ki, Paşinyan öz respublikasının qanun pozucusu rolunda çıxış edərək Rusiyayönlü siyasətçi nüfuzuna malik Köçəryanı həbsə göndərməyi əmr edərkən hadisələr açıqca onun hesabladığı ssenari ilə inkişaf etmir. Nəticədə "Köçəryanın işi" deyilən məsələyə geopolitik gərginlik hopmağa başlayıb. Sosioloqların məlumatına görə, hələ bu yaxınlarda gözədəyən siyasi reytinqi olmayan Köçəryanın özünü müxalifətin lideri elan etməyi təsadüf deyil. Lakin Paşinyan Dağlıq Qarabağda sui-qəsddən danışmağa başlayanda daha bir gediş edib. "Bütün faktları araşdırıb bunun arxasında yeni savaş başlamaq və ola bilsin, məsuliyyəti ölkə hökumətinin üzərinə qoyaraq hətta bəzi əraziləri vermək məqsədilə sui-qəsd görürəm, - o bildirib. - Bu əməldə dövlətə xəyanət görürəm". O beləcə, Köçəryanla Xankəndinin indiki rejimi arasında körpücük atmağa başlayaraq hər hansı sübutsuz, amma böyük eyhamla onlara ittiham elan edib: "Köçəryan, həm də Xankəndidəki rejim Rusiyayönlü köklənib, uyğun olaraq onların "bəzi əraziləri verməyə hazır olması" guya Rusiyanın layihəsidir.

Paşinyan 2016-cı il aprel savaşının bütün ayrıntılarını araşdırmaq üzrə parlament komissiyası yaratmağın gərəkliyini bu "işin" altına itələyir. İndi Paşinyanın İrəvanda Rusiya jurnalistlərilə bu yaxınlardakı görüşdə söylədiyi ifadəyə diqqət yetirək: "Mən inanmaq istəmirəm ki, Ermənistanın strateji müttəfiqi Rusiya bölgədə savaşın təzələnməyinə yol verməmək üçün öz vasitələrindən istifadə etmir. Mən inana bilmirəm ki, Rusiya savaşın başlanmağına imkan verər və Azərbaycanı çəkindirmək üçün öz vasitələrindən istifadə etmir".

Paşinyana görə, buradan irəli gəlir ki, Rusiya 2016-nın aprelində "Azərbaycana savaşa başlamaq imkanı verib". Yəni söhbət artıq Ermənistanın daxili işlərindən getmir və İrəvan Moskva ilə münasibətləri kəskinləşdirməyə oynayır.

Köçəryana havadarlığı davam etdirəcəyi halda bu yaxınlarda İrəvanda Azadlıq meydanında mitinqdə Bako Saakyanın ünvanına cəzasız qalan hədələr səslənərkən "Dağlıq Qarabağın Milli Təhlükəsizlik Xidmətinin keçmiş başçısı", "Dağlıq Qarabağ prezidentinin xüsusi tapşırıqlar üzrə köməkçisi" Arşavir Qaramyan bu hədələrə hüquqi qiymət vermək tələbilə "Dağlıq Qarabağın Baş Prokurorluğuna" müraciət edəndə hakimiyyət partiyası bildirib ki, "buna heç bir dəxli yoxdur". "Vətəndaş müqaviləsi" partiyasının mətbuat katibi Vahan Kostanyan sıradakını deyib: "Bizdə hansısa aksiyanı yad qüvvələrlə keçirmək vərdişi yoxdur". Bu belədirsə, onda Ermənistanda üçüncü güc deyilən amilin meydana çıxdığı haqda nəticəyə gəlmək olar. Və bu üçüncü qüvvə sanki Paşinyanın elan etdiyi mifik "sui-qəsd"in ifşası yönündə Dağlıq Qarabağa qarşı, yeni Paşinyanın maraqlarında iş görür. Bununla belə, bizim əlaqə saxladığımız Azərbaycan ekspertləri hesab edirlər ki, Bakı indiki mərhələdə, hər şeydən əvvəl, Dağlıq Qarabağda durumun kəskinləşməsinin Ermənistan cəmiyyətində birliyə və Rusiyanın bu bölgədə rolunun güclənməsinə səbəb olacağı üzündən Ermənistanın daxili-siyasi qarışıqlığından yararlanmaq niyyətində deyil. Onlar inanırlar ki, İrəvan və Moskva arasında münasibətlər dağılacağı halda Xankəndi "ikinci Donbas" ola bilər ki, bu da Azərbaycan diplomatiyasına yeni imkanlar açar.

Erməni ekspertlərinin hesab etdiyi kimi, eyni zamanda "əslində, problem xeyli qəlizdir və Paşinyanın Ermənistandakı "Qarabağ klanı" üzərində qələbəsində maraqlı olan hansısa ayrıca şəxsə və ya qruplara dirənmir". Onların fikrincə, "oyunu Qarabağ probleminin daha sürətlə tənzimlənməsini, bunun sayəsində Türkiyə ilə sərhədləri açmağı və Ermənistanın İranla sərhədini möhkəm rəzəylə bağlamağı, daha doğrusu, onu İranla ümumi sərhəddən məhrum etməyi kəsdirən", sonra isə Ermənistanı Türkiyə ilə barışığa aparmağı və Ermənistan güclərinin nəzarət etdiyi ərazilərin, heç olmasa bir hissəsinə İrəvandan güzəştə nail olmağı əlaqələndirən amerikalılar aparır".

Biz onlarla bunda da razılaşırıq ki, "yalnız qarşılıqlı əlaqəli bölgəsəl problemlərin qəliz yumağını və Tramp administrasiyasının bunu ABŞ-ın geopolitik maraqlarına uyğun həllə hədəflədiyini nəzərə alaraq anlamaq olar ki, Paşinyan niyə məhkəmənin Köçəryan haqda həbs qətimkan tədbirinin ləğvi haqda qərarını pisləmək və bütün "məhkəmə zümrəsi"ni cəzalandırmağa çağırış kontekstində sanki birdən hansısa "xain sui-qəsdçilər"in Qarabağda Ermənistan güclərinin nəzarət etdiyi əraziləri verə biləcəyi mövzusunu araya soxub".

Öz qanadlarını doğramaq və özünü küncə qovmaqda bundan yaxşı üsul təsəvvür etmək çətindir". Bütün bunlar bir daha təsdiq edir ki, Qarabağ münaqişəsinin həlli istiqamətində yaxın tezlikdə mühüm dəyişikliklərin olmasını gözləmək olar. Hər halda, Bakının əsas istəyi budur və əks təqdirdə Azərbaycanın savaşla istəyinə nail olacağı bütün dünya ictimaiyyətinə, o cümlədən Ermənistanın özünə də yaxşı məlumdur.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ermənilər Şuşanın mədəniyyət irsinə qarşı təcavüzün yeni mərhələsinə başlayıblar

**Ermənilər işğal altında saxladıqları Dağlıq Qarabağda və ətraf rayonlarda maddi mədəniyyət abidələrimizə qarşı müxtəlif formalarda təxribatlar törədirlər. Onlar dağıtdıqlarını dağıdıblar, qalan abidələrimizi isə erməniləşdirməkdə davam edirlər.**

Ermənilər Şuşadakı Yuxarı Gövhər Ağa Məscidinə qarşı da ağlasığmaz vəhşiliklər törədiblər. Bu halla bağlı "Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması" İctimai Birliyinin rəhbəri Tural Gəncəliyev bəyanatla çıxış edib. Şuşadakı Yuxarı Gövhər Ağa məscidi ilə bağlı bəyanatda qeyd edilir ki, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarında xalqımıza məxsus zəngin mədəni, tarixi və dini irsin dağıdılması, gizlədilməsi və dəyişdirilməsi kimi fəaliyyətin mütəmadi şahidi oluruq. "Biz erməni mediasına istinadən Şuşa şəhərinin Yuxarı Gövhər Ağa məscidində aparılan "təmir-bərpa işləri" haqqında xəbərləri dərin narahatlıq hissi ilə izləyirik. İşğalçı Ermənistanın torpaqlarımızda etnik təmizləmə həyata keçirdikdən sonra beynəlxalq humanitar hüququn bütün norma və prinsiplərini kobudcasına pozaraq Şuşanın əsas simvollarından hesab edilən məsciddə qanunsuz "təmir-bərpa işləri" aparması və bu məqsədlə hansısa şirkətləri cəlb etməsi Azərbaycan xalqının mirasına qarşı yönəldilmiş vandallıq hərəkətlərinin davamı kimi başa düşülməlidir.

Hamıya məlumdur ki, Qarabağ xanı İbrahim xanın qızı Gövhər Ağanın (Gövhərnisə bəyim) adını daşıyan Yuxarı Gövhər Ağa məscidi Gövhərnisənin maddi dəstəyilə, qoşa minarəli formada atası İbrahim xanın yararsız hala düşmüş məscidinin yerində şuşalı memar Səfixan Qarabaği tərəfindən 1883-cü ildə inşa edilib.

İşğal olunmuş Şuşa şəhərində digər abidələr və dini ibadət ocaqları da eyni aqibətlə üzləşib. Şuşa sanatoriyasının ərazisindəki rus kilsəsinin gümbəzini dağıdıb yenidən tikərək obrazı dəyişdirilib və rus kilsəsi yeni uydurma "Kanaç jam" adlandırılıb".

Qeyd edilənə görə, Ermənistan bu hərəkəti ilə təkcə irsimizi hədəfə almır, eyni zamanda, İran və Azərbaycan arasında mövcud olan dostluq əlaqələrinə xələl gətirir. Bu bir daha Ermənistanın əsl xislətini nümayiş etdirir və destruktiv xarakterli hərəkətlərini ifşa edir. T.Gəncəliyev məlum bəyanatında bildirib ki, Yuxarı Gövhər Ağa məscidinin "bərpa edilməsi" altında Ermənistanın hansı məkrli niyyətinin durduğunu qeyd olunanlar müstəvisində daha aydın görmək mümkündür. "Bu, Ermənistanın onsuz da həssas olan regionda nə qədər təhlükəli oyun apardığını və dost ölkələrin arasını vurmaq kimi çirkin planlarının olduğunu göstərir.

"Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması" İctimai Birliyi Ermənistanın bu hərəkətlərinin qarşısının alınması və mədəni-tarixi irsimizə qarşı həyata keçirilən bu qanunsuz vandal hərəkətlərinin pislənməsi məqsədilə Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumu olan UNESCO, digər beynəlxalq təşkilatlar və dünya ictimaiyyətinə müraciət edir. Ermənistanın işğal edilmiş ərazilərimizdə apardığı vandalizm hərəkətlərinə göz yummaq beynəlxalq humanitar hüquq üzrə ölkələrin öz üzərinə götürdükləri öhdəliklərə zidd olmaqla yanaşı, ümumbəşəri mədəni irsə qarşı etinasız münasibət kimi anlaşılardı. Əgər dünya ictimaiyyəti qeyd olunanlar müqabilində səssizliyini davam etdirərsə, bəşəriyyətə məxsus mədəni-tarixi irsin daha kəskin formada dağıdılması üçün destruktiv qüvvələrə şərait yaratmış olacaq!" - deyə bildirilir.

## *Əli Mahmud: "Ermənilər Yuxarı Gövhər Ağa məscidində saxta "təmir-bərpa işi" aparmaqla bizi qıcıqlandırmaq, sülh danışıqlarını pozmaq niyyəti güdürlər"*




*"İstəkləri bu məscidi tamamilə məhv etmək, yer üzündən silməkdir"*

**"Qarabağa aparan yol" qəzetinin baş redaktoru, tanınmış şair-jurnalist, publisist Əli Mahmud "Bakı-Xəbər"ə bildirdi ki, ermənilər Şuşadakı Yuxarı Gövhər Ağa məscidində bir neçə il əvvəl də "restavrasiya işləri" aparıb. O qeyd etdi ki, onlar məscidin quruluşunu dəyşdirərək onu "fars məscidi" kimi qələmə verməyə çalışıblar.** Bu gün Yuxarı Gövhər Ağa məscidində ermənilərin həyata keçirdiyi "təmir-bərpa işi"nin birmənalı olaraq təxribat olduğunu bildirən Ə.Mahmud hesab edir ki, onlar bununla Qarabağ danışıqlarına, eləcə də münaqişənin danışıqlar yolu ilə həllinə zərbə vururlar. Ermənilərin tarixən qeyri-humanist bir toplum olduğunu deyən Ə.Mahmudun sözlərinə görə, onlar Yuxarı Gövhər Ağa məscidinə əl uzatmaqla bir daha cinayətkar xislətlərini ortaya qoyurlar. "Ermənilərin işğal altında saxladıqları Dağlıq Qarabağda və ətraf rayonlarda abidələrimizə qarşı törətdikləri cinayətlər, saxtakarlıqlar ölçüyəgəlməzdir. Onların məqsədi, əslində, Yuxarı Gövhər Ağa məscidini "təmir-bərpa" etmək deyil, istəkləri bu məscidi tamamilə məhv etmək, yer üzündən silməkdir. Necə ki, onlar bunu digər abidələrimizə qarşı ediblər. Onlar "təmir-bərpa" adı ilə özlərini elə göstərirlər ki, guya bunlar çox humanist xalqdır və başqa xalqların mədəniyyət abidələrinə "qayğı" ilə yanaşırlar. Əslində isə onlar bununla öz yırtıcılıq xasiyyətlərini bir daha ortaya qoyurlar. Yuxarı Gövhər Ağa məscidi Şuşanın incilərindən biridir və bu abidənin konkret tarixi var. Ermənilər bizim abidələrimizə qarşı nə qədər saxtalaşdırma kampaniyası həyata keçirsələr də, heç nəyə nail ola bilməyəcəklər. Çünki bizim izimizi itirə bilməyəcəklər. O torpağın əbədi və əzəli sahibi Azərbaycan xalqıdır. Ermənilərin Gövhər Ağa məscidində "təmir-bərpa işləri" aparması qanunsuzdur və bu məsələyə aidiyyəti beynəlxalq qurumlar reaksiya verməlidirlər. Ermənilər müvafiq beynəlxalq qanunların, konvensiyaların bəndlərini pozur, beynəlxalq ictimaiyyət isə reaksiya vermir.

*"Ermənilər müvafiq beynəlxalq qanunların, konvensiyaların bəndlərini pozur, beynəlxalq ictimaiyyət isə reaksiya vermir"*

Hesab edirəm ki, ermənilər Yuxarı Gövhər Ağa məscidində saxta "təmir-bərpa işi" aparmaqla bizi qıcıqlandırmaq, sülh danışıqlarını pozmaq niyyəti güdürlər. Ona görə də bu təxribata əl atırlar. Qarabağda, nə də ətraf rayonlarda ermənilərə aid heç bir abidə yoxdur. Ermənilərin nə tarixi, nə mədəniyyəti, nə vətəni, nə torpağı, nə də abidəsi var. Onların özlərinin belə bir məsəli var: "Çörək hardadırsa, vətən də ordadır". Bu da onu göstərir ki, ermənilərdə vətən anlayışı, vətən sevgisi, vətənpərvərlik hissləri yoxdur. Bizim bir misalımız var, babalarımız onu ermənilər haqqında deyiblər: "Ermənilər it qumu kimi bütün dünyaya səpələniblər". Bu baxımdan, onların Dağlıq Qarabağı tərk edəcəyi şübhəsizdir. Çünki ora onların torpağı deyil. Sabah başqa yerdə çörək olsa, ermənilər ora qaçacaqlar. Bilirsiniz ki, bu gün ermənilər dünyanın başağrısına çevriliblər. Ruslar da, ingilislər də, başqa xalqlar da onların həyata keçirdikləri terrora məruz qalıblar".

**Ə.Mahmudun sözlərinə görə, dünya özü ermənilərdən xilas olmaq üçün çarə axtarır. Onun qeyd etdiyinə görə, ermənilərin işğal etdikləri Azərbaycan torpaqlarındakı özbaşınalıqları uzun sürməyəcək və gec-tez şanlı ordumuz onları torpaqlarımızdan çıxaracaq.**

*İradə SARIYEVA*



# Ermənilər Şuşada tək məscidi yox, rus pravoslav kilsəsini də saxtalaşdırıb

**"Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması" İctimai Birliyinin rəhbəri Tural Gəncəliyev Şuşadakı "Yuxarı Gövhər Ağa" məscidi ilə bağlı bəyanat verib.**

Baki-xeber.com-un xəbərinə görə, bəyanatda deyilir: "Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarında xalqımıza məxsus zəngin mədəni, tarixi və dini irsin dağıdılması, gizlədilməsi və dəyişdirilməsi kimi fəaliyyətin mütəmadi şahidi oluruq.

Biz erməni mediasına istinadən Şuşa şəhərinin "Yuxarı Gövhər Ağa" məscidində aparılan "təmir-bərpa işləri" haqqında xəbərləri dərin narahatlıq hissi ilə izləyirik. İşğalçı Ermənistanın torpaqlarımızda etnik təmizləmə həyata keçirdikdən sonra, beynəlxalq humanitar hüququn bütün norma və prinsiplərini kobudcasına pozaraq Şuşanın əsas simvollarından hesab edilən məsciddə qanunsuz "təmir-bərpa işləri" aparması və bu məqsədlə hansısa şirkətləri cəlb etməsi, Azərbaycan xalqının mirasına qarşı yönəldilmiş vandallıq hərəkətlərinin davamı kimi başa düşülməlidir.

Hamıya məlumdur ki, Qarabağ xanı İbrahim xanın qızı Gövhər Ağanın (Gövhərnisə bəyim) adını daşıyan "Yuxarı Gövhər Ağa" məscidi Gövhərnisənin maddi dəstəyi ilə qoşa minarəli formada atası İbrahim xanın yararsız hala düşmüş məscidinin yerində Şuşalı memar Səfixan Qarabaği tərəfindən 1883-cü ildə inşa edilmişdir.

İşğal olunmuş Şuşa şəhərində digər abidələr və dini ibadət ocaqları da eyni aqibətlə üzləşmişdir. Şuşa sanatoriyasının ərazisindəki Rus kilsəsinin kümbəzi dağıdıb yenidən tikərək obrazı dəyişdirilib və Rus kilsəsi yeni uydurma Kanaç jam adlandırılmışdır.

Ermənistan bu hərəkəti ilə təkcə irsimizi hədəfə almır, eyni zamanda, İran və Azərbaycan arasında mövcud olan dostluq əlaqələrinə xələl gətirir. Bu bir daha Ermənistanın əsl xislətini nümayiş etdirir və destruktiv xarakterli hərəkətlərini ifşa edir. "Yuxarı Gövhər Ağa" məscidinin "bərpa edilməsi" altında Ermənistanın hansı məkrli niyyətinin durduğunu qeyd olunanlar müstəvisində daha aydın görmək mümkündür. Bu, Ermənistanın onsuz da həssas olan regionda nə qədər təhlükəli oyun apardığını və dost ölkələrin arasını vurmaq kimi çirkin planlarının olduğunu göstərir.

Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Ermənistanın bu hərəkətlərinin qarşısının alınması və mədəni-tarixi irsimizə qarşı həyata keçirilən bu qanunsuz vandal hərəkətlərinin pislənilməsi məqsədilə Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumu olan UNESCO, digər beynəlxalq təşkilatlar və dünya ictimaiyyətinə müraciət edir. Ermənistanın işğal edilmiş ərazilərimizdə apardığı vandalizm hərəkətlərinə göz yummaq beynəlxalq humanitar hüquq üzrə ölkələrin öz üzərinə götürdükləri öhdəliklərə zidd olmaqla yanaşı, ümumbəşəri mədəni irsə qarşı etinasız münasibət kimi anlaşılardı. Əgər dünya ictimaiyyəti qeyd olunanlar müqabilində səssizliyini davam etdirərsə, bəşəriyyətə məxsus mədəni-tarixi irsin daha kəskin formada dağıdılması üçün destruktiv qüvvələrə şərait yaratmış olacaq!"

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**BABAYEV TELMAN NURMƏMMƏD oğlu**



4 may 1970-ci ildə Azərbaycan Respublikasının Əli Bayramlı (indi Şirvan) şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Şirvan şəhərində yaşamışdır. Şirvan ŞHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Telman Nurməmməd oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 17 yanvar 1993-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Telman Nurməmməd oğlu 17 yanvar 1993-cü il tarixində Kəlbəcər rayonunun Dovşanlı kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür

Babayev Telman Nurməmməd oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV VÜQAR SƏLİM oğlu**



16 aprel 1972-ci ildə Azərbaycan Respublikasının Göyçay rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Göyçay rayonunun Qarabaqqal kəndində yaşamışdır. Göyçay RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Vüqar Səlim oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 12 fevral 1994-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Vüqar Səlim oğlu 12 fevral 1994-cü il tarixində Kəlbəcər rayonunun Yanşaq kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babayev Vüqar Səlim oğlunun sonrakı taleyi barədə məlumat yoxdur

**BABAYEV YADİGAR MÜRŞÜD oğlu**



9 iyun 1971-ci ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Nizami rayonunda yaşamışdır. Nizami RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Yadigar Mürşüd oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 31 mart 1993-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Yadigar Mürşüd oğlu 31 mart 1993-cü il tarixində Kəlbəcər rayonu ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Babayev Yadigar Mürşüd oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAĞIROV AĞACƏLİL CƏFƏR oğlu**



14 dekabr 1965-ci ildə Azərbaycan Respublikasının Kürdəmir rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Kürdəmir rayonunun Topalhəsənli kəndində yaşamışdır. Kürdəmir RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Bağırov Ağacəlil Cəfər oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 12 yanvar 1994-cü ildə Füzuli rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Bağırov Ağacəlil Cəfər oğlu 12 yanvar 1994-cü il tarixində Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Bağırov Ağacəlil Cəfər oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Tramp və Çin lideri güzəştlərsiz bir-birinin üzərinə yeriməyə qərar verdi...

## ABŞ - Çin ticarət savaşı Azərbaycana hansı üstünlüklər qazandıracaq?

**Dünyanın iqtisadi gündəmində getdikcə daha çox narahatlıq mənbəyinə çevrilən məqamlardan biri də ticarət müharibələri ilə bağlıdır. Çünki bu hal beynəlxalq iqtisadi nizamı dağıdan əsas faktorlardan biri sayılır. İndilikdə isə görünən budur ki, ABŞ və Çin arasında qeyd olunan xüsusda ziddiyyətlər getdikcə kəskinləşməkdə, qlobal iqtisadiyyatı sarsıtmaqdadır.**

Buna rəğmən, tərəflərdən heç biri hələ də mövqeyindən geri çəkilməyi düşünmür. Belə ki, ABŞ prezidenti Donald Tramp Vaşinqtonun Pekinlə ticarət müqaviləsi bağlamağa hazır olmadığını bildirib: "Onlar, yəqin ki, təkrar nəzərdən keçirməyi qərara almazdan əvvəl bizim irəli sürdüyümüz şərtlər əsasında müqavilə bağlamaq istərdilər. Onlar müqavilə bağlamaq istəyə bilərlər, ancaq biz onlara güzəştə getməyə hazır deyilik". Amerikalı lider rəsmi Pekinə təhdid ismarıcı göndərib. Trampın sözlərinə görə, ABŞ-da Çin məhsullarına tətbiq olunan idxal rüsumları çox asan və əhəmiyyətli dərəcədə artırıla bilər.

ABŞ-ın ticarət nümayəndəsi Robert Laythayzer belə bir vaxtda bildirib ki, artıq Donald Tramp təxminən 300 milyard dollarlıq Çin mallarına illik rüsumların artırılmasını tapşırıb: "Daha əvvəl biz ABŞ prezidentinin göstərişi ilə təxminən 200 milyard dollarlıq Çin mallarının idxalına qoyulmuş tariflərin səviyyəsini 10 faizdən 25 faizə qədər artırdıq. Prezident, həmçinin, bizə Çindən qalmış, təxminən 300 milyard dollar qiymətləndirilən bütün idxal rüsumlarının artımı prosesinə başlamaq barədə göstəriş verib".



Çin də geri çəkilmək niyyətində deyil. Çinin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Qen Şuan bildirir ki, ABŞ ticarət müharibəsini davam etdirmək istəsə, Çin qələbəyə qədər mübarizə aparacaq: "Əvvəlki təcrübə Çinin ticarət müharibəsi istəmədiyini, lakin ondan qorxmadığını göstərdi. Kim evimizin kandarında müharibə etmək istəsə, biz qələbəyədək mübarizə aparacağıq". Qen Şuan ABŞ-ın vəziyyəti obyektiv qiymətləndirəcəyinə və Çinin öz maraqlarını qorumaqda qətiyyətli olduğunu anlayacağına ümidini ifadə edib. Belə vəziyyətdə maraq doğuran məqamlardan biri baş verənlərin digər dünya ölkələrinə, o cümlədən Azərbaycana mümkün təsirləri ilə bağlıdır. Bu xüsusda indi müxtəlif fikirlər səslənir. Məsələn, Pekin İctimai Elmlər Akademiyasının Beynəlxalq Münasibətlərin Öyrənilməsi İnstitutunun eksperti Dmitri Belyakov bildirir ki, postsovet ölkələri, o cümlədən Azərbaycan ABŞ və ümumiyyətlə Qərbin Çinə təzyiqindən faydalana biləcək: "Çinlə ABŞ arasında iqtisadi əlaqələrin kəskinləşdiyi aydındır. Hazırda belə vəziyyət hər iki ölkəyə sərf edir, çünki bu, ABŞ prezidenti Donald Trump və Çinin sədri Si Tsinpinin öz ölkələrinin daxili məsələlərini həll etməsinə imkan verir. Çin ictimaiyyəti monolit deyil, orada müxtəlif klan qruplaşmaları mövcuddur. Həmçinin, Çinin ABŞ-la dost olmasını dəstəkləyən qruplar da var". Ekspertin fikrincə, arxasında Si Tsinpinin dayandığı bu qruplara görə, sözsüz ki, ABŞ-la olan qarşıdurma zamanı öz simasını itirmək və hansısa şəraitdə güzəştə getmək olmaz. Çünki amerikalılar danışıqlar aparmır və qarşısındakına manevr etməyə imkan verməyərək öz iradəsini təlqin edir: "Çin artıq mümkün olduğu qədər məsələləri dinc yolla həll etməyə cəhd göstərib. O, Qərb şirkətlərinin maraqlarını nəzərə alan siyasət yürütməyə başlayıb. Amma Amerika tərəfi, bütün bunlara baxmayaraq, təzyiqi daha da artırmağı davam etdirir. Nəticə etibarilə, Çin müəyyən vaxtdan sonra bu siyasətindən imtina edəcək". Belyakov "Sputnik" portalına açıqlamasında qeyd edir ki, Çin ABŞ-la kəskin münaqişəyə girmək istəmir və maksimal dərəcədə bu mərhələnin gəlməsindən çəkinir. Lakin həmin mərhələ gec-tez gələcək və bu, üçüncü ölkələr vasitəsilə baş verəcək. Bu proses Afrikadan və Ərəbistan yarımadasından logistika yolları vasitəsilə daxil olan resurslara da öz ciddi təsirini göstərəcək. Belyakovun sözlərinə görə, bununla əlaqədar olaraq, Çin rəhbərliyinin gözü daha çox Avropa İttifaqı və Mərkəzi Asiya ölkələrini, həmçinin əlverişli logistika yollarının üstündə yerləşən, iki qitə arasında körpü olan zəngin Azərbaycanı axtaracaq: "İndi ABŞ və Avropanın ABŞ-la qarşıdurma sistemi yeni şəkil almağa başlayır. Onların arasında qarşıdurma kəskinləşəcək, Çinə təzyiq artacaq. Postsovet ölkələri isə bundan öz xeyirlərinə faydalana bilər". Ekspert hesab edir ki, bu zaman milli maraqları nəzərə almaq və savadlı təkliflər etmək lazımdır.

Xatırladaq ki, Çin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Azərbaycana xüsusi maraq yetirir. Pekinin 2013-cü ildə elan etdiyi "Bir kəmər, bir yol" adlı yeni iqtisadi inkişaf strategiyası, tarixi İpək Yolu üzərində yerləşən dövlətlər də daxil olmaqla, Çinin xarici ölkələrlə qarşılıqlı əlaqələrinin inkişafına və ticari-iqtisadi əməkdaşlığın inkişafı ilə bağlı müvafiq infrastruktur yaradılmasına yönəlib. Bu strategiya iki mühüm inkişaf istiqamətini əhatə edir: "İpək Yolu İqtisadi Kəməri" və "Dəniz İpək Yolu". Azərbaycan hər iki istiqamətdə Çin üçün vacib önəm kəsb edir. Əsas səbəb odur ki, Avrasiyanın mərkəzində, Şərqlə Qərbin qovuşuğunda yerləşən Azərbaycan tarixi İpək Yolunun vacib ölkələrindən biri olub. Müasir dövrdə Azərbaycan beynəlxalq ticarət dəhlizlərinin yaradılmasında fəal iştirak edir. Bu fonda ölkəmizin nəqliyyat-tranzit potensialının müasirləşdirilməsi istiqamətində genişmiqyaslı işlər görülür. Bakı yük terminalı, Ələt Ticarət Limanı, ən müasir yük gəmilərinə malik Xəzər dənizindəki yük donanması, 2017-ci ildə istifadəyə verilən və Avropa ilə Çin arasında ən qısa dəmir yolu bağlantısını təmin edən Bakı-Tiflis-Qars dəmir yolu xətti bunların real təsdiqidir.

Təbii ki, bu istiqamətdə dünyanın ikinci iqtisadiyyatına malik Çinlə əlaqələr xüsusi əhəmiyyətə malikdir. Dünyanın ən böyük ixracatçısı və ən böyük ikinci idxalçı ölkəsi olan Çinin özünün xarici ticari-iqtisadi əlaqələrini daha da dərinləşdirməkdən ötrü irəli sürdüyü "Bir kəmər, bir yol" strategiyası Azərbaycan üçün də yeni əməkdaşlıq imkanları yaradır.

***Nahid SALAYEV***

# Ölkədə taxıl idxalında artımın neqativ və pozitiv nəticələri...

**Açıqlanan statistik rəqəmlərə əsasən, bu ilin yanvar-aprel aylarında Azərbaycan 117 milyon ABŞ dolları dəyərində 518 min 704 ton buğda idxal edib. Dövlət Gömrük Komitəsinin yaydığı məlumatda qeyd olunur ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə məbləğ baxımından 46 milyon 109 min dollar (65 faiz), həcm baxımından isə 111 min 862 ton (27,5 faiz) çoxdur.**



*"Ölkənin ərzaq buğdasına tələbatı tam olaraq yerli istehsal hesabına ödənməlidir"*

Hesabat dövründə buğda idxalı Azərbaycanın ümumi idxalının 2,6 faizini təşkil edib.

Qeyd edək ki, buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı 2021-ci ilədək vergidən azad olunub. Bununla bağlı Azərbaycan Prezidenti Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanunu mart ayında imzalayıb. Bu güzəşt 2017-ci ildən tətbiq edilir.

**Buğda idxalında artım səbəbləri barədə məlumat verən iqtisadçı-ekspert Fuad İbrahimli qeyd etdi ki, taxıl idxalında ildən-ilə artım müşahidə olunur.** Azərbaycan əhalisinin illik ərzaq buğdasına tələbatı təxminən 1,7 milyon tondur: "Hesab edirəm ki, istehlakın artmasından söhbət gedə bilməz. Əsas məsələ buğdanın keyfiyyətindədir. Azərbaycanda becərilən taxıl çörək istehsalı üçün nə dərəcədə yararlıdır? Məlumdur ki, ölkənin iri un istehsalçıları, dəyirmanlar daha çox idxal taxılına üstünlük verirlər. Dövlət Taxıl Fondu da əsasən idxal məhsuluna üstünlük verir. Belə ki, "Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları"nın 1 nömrəli əlavəsinə görə, Dövlət Taxıl Fonduna tədarük olunan taxıl üçün qəbul edilmiş keyfiyyət göstəricilərinə cavab verən buğda alınır. Bu da dolayısı ilə yerli istehsalın keyfiyyət göstəricilərinin aşağı olmasından xəbər verir. Görünən o ki, fermerlərimizin əkdiyi taxıl yalnız heyvan yeminə yararlıdır. Əsasən də şoranlaşmış ərazilərdə yetişdirilən buğdanın keyfiyyət göstəriciləri normativlərə uyğun gəlmir. Bundan əlavə, xəstəlik və zərərvericilər, toxumluq buğdanın keyfiyyətinin aşağı olması, gübrə, texnika və anbar çatışmazlığı, suvarma suyu təminatında yaranan problemlər istehsalın aşağı düşməsinə səbəb olur. Primitiv istehsal forması ilə isə uzağa getmək mümkün deyil. Ölkəmizin taxıl istehsalını iqtisadi cəhətdən də effektli hesab etmək olmaz. Üzvi gübrə çatışmazlığı səbəbindən torpaqlar ilbəil öz münbitliyini itirir. Buna görə də ölkədə istehsal olunan məhsulun maya dəyəri yüksək, rentabelliyi isə aşağı olur. O cümlədən, dünya bazarlarında taxılın qiyməti ucuzlaşdıqda da bəzi un istehsalçıları idxal taxılı ilə işləməyi kommersiya baxımından daha sərfəli hesab edirlər".

**Fuad İbrahimli:** *"Buğda idxalında artımın qeydə alınmasının qiymətlərə müəyyən təsiri olur və olacaq"*

Ekspert onu da vurğuladı ki, ərzaq təhlükəsizliyi baxımından taxılçılıq ən strateji sahə hesab olunur: "The Economist Intelligence Unit" beynəlxalq təşkilatının ərzaq təhlükəsizliyinə dair illik hesabatında Azərbaycan dünyanın 109 ölkəsi arasında 62-ci yeri tutur. Ölkənin ərzaq buğdasına tələbatı tam olaraq yerli istehsal hesabına ödənməlidir. Amma ölkəmiz ərzaq buğdasına olan tələbatı Qazaxıstan və Rusiya hesabına ödəyir. 2015-ci ilin dünya üzrə taxıl ixrac rəqəmlərinə nəzər salsaq, Türkiyənin dünya rekorduna imza atdığını görərik. Əlavə dəyəri yüksək olduğu üçün 2003-cü ildən etibarən bu ölkənin un ixracatının da inanılmaz şəkildə yüksəldiyini görmək olar. Tədqiqatlar nəticəsində istehsalına başlanan diabetik unun ixracında da ölkə böyük irəliləyiş əldə edib. Düşünürəm ki, yeni buğda növləri təkmilləşdirilməli, yetişdirmə metodlarındakı yeniliklər tətbiq olunmalı, əkin zamanı rotasiya prinsiplərinə əməl edilməli, istehsalçılara güzəştli qiymətlərlə gübrə və mazut verilməli, buğda keyfiyyət parametrlərinə görə alınaraq qaydalara müvafiq saxlanmalı, istehsalçı kooperativləri yaradılmalı, idxala yönəlmək əvəzinə, istehsalla məşğul olan kiçikmiqyaslı ailə müəssisələri dəstəklənməlidir".

Onun sözlərinə görə, buğda idxalında artımın qiymətlərə müəyyən təsiri olub: "Bir müddət öncə un məmulatlarının qiymətində artım müşahidə olunurdu. İdxaldan asılılıq olduğu üçün, xaricdə qiymət dəyişikliyi baş verən zaman bu, Azərbaycanda qiymətlərə təsir edir. Azərbaycanda əsasən də çörəkdə kəskin və nəzərəçarpacaq qiymət artımı müşahidə olunmayıb. Çünki istehsalçılar çörəyə bir az spesifik yanaşırlar. Əhalinin qiymətlərə həssas olduğunu nəzərə alan istehsalçılar qiyməti artırmır, çörəyin çəkisini azaldırlar.

İdxaldan asılılıq yüksək olduqca xaricdə qiymət dəyişkənliyi, istər-istəməz, bir müddət sonra Azərbaycanda da qiymətlərə təsir edir".

**Günel CƏLİLOVA**

# Dəniz nəqliyyatı ilə yükdaşımalarda azalma - səbəblər...

**Dünya təsərrüfat sistemində dəniz nəqliyyatının rolu olduqca böyükdür. Beynəlxalq iqtisadi əlaqələr sistemində dəniz nəqliyyatı mühüm rol oynadığından, bu sahəni dəniz nəqliyyatının iştirakı olmadan təsəvvür etmək mümkün deyil. Dəniz nəqliyyatı vahid nəqliyyat sistemində digər nəqliyyat növləri ilə müqayisədə (boru kəməri istisna olmaqla) ən ucuz nəqliyyat növüdür.**



*"Dəniz nəqliyyatı ilə yüklərin daşınmasının azalması səbəblərindən biri hava şəraitinin pisləşməsidir"*

**Pərviz Heydərov:** *"...subyektiv amillərlə bağlıdır"*

Dəniz nəqliyyatının xalq təsərrüfatındakı mühüm yerini göstərən cəhətlərdən biri də onun Qədim İpək Yolunun fəaliyyətindəki rolu, Azərbaycanın Qafqaz regionundakı mühüm strateji mövqeyinin möhkəmlənməsindəki əhəmiyyəti ilə izah edilir. Məlum olduğu kimi, Azərbaycan Avropa ilə Asiya qitəsi arasında böyük körpüdür. Dəhlizin dəniz hissəsində yükdaşımanın həcmi xeyli artıb. Belə ki, 1996-cı ildə dəhlizlə 766 min ton yük daşınmışdısa, 1997-ci ildə bu göstərici 2,1 mln. tona çatmış, yaxud 3 dəfədən çox olub. 1998-ci ildə təkcə 11 ay ərzində isə dəhlizin dəniz hissəsi ilə gəmi bərələrlə 17,484 vaqon yük daşınıb ki, bu da 1997-ci ilin müvafiq dövrü ilə müqayisədə 3 min vaqon çoxdur.

Göründüyü kimi, nəqliyyat dəhlizində yükdaşımanın artması respublikanın iqtisadi potensialının yüksəlməsində, xalq təsərrüfatı sahələrinin inkişafında böyük əhəmiyyətə malikdir.

Açıqlanan statistik rəqəmlərə əsasən, bu ilin yanvar-aprel aylarında dəniz nəqliyyatı ilə daşınmış yüklərin həcmi 2 146,1 min ton təşkil edib və əvvəlki ilin müvafiq dövrünə nisbətən 24,5 faiz azalıb. Dövlət Statistika Komitəsinin yaydığı məlumatda qeyd olunur ki, daşınmış yüklərin 32,8%-ni neft yükləri təşkil edib. Bundan başqa, dəniz limanları tərəfindən 2 774,1 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilib, yüklərin 2 518,1 min tonu və ya 90,8%-i tranzit yüklərin payına düşüb. Məlumata əsasən, 2019-cu il may ayının 1-i vəziyyətinə limanlarda qalan yüklərin həcmi 79,2 min ton təşkil edib.

**Dəniz nəqliyyatı ilə daşınan yüklərin həcminin nə səbəbdən azaldığını öyrənmək üçün iqtisadçı-ekspert Pərviz Heydərova müraciət etdik. O, "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycanda dəniz nəqliyyatının inkişafına böyük diqqət yetirilir:** "Ələt dəniz ticarət limanı işə salınıb. Eyni zamanda, həmin limanda aparılan tikinti işlərinin ikinci mərhələsi həyata keçirilməkdədir. Məlumdur ki, Bakıda olan dəniz limanı fəaliyyətini dayandırıb. Limanın müvafiq təchizatı Ələtə köçürülüb. Ölkəmizin nəqliyyat paytaxtına çevrilməsi istiqamətində görülən işlər bü gün də davam etdirilir. Bununla yanaşı, Bakı-Tiflis-Qars dəmir yolu da bir müddətdir fəaliyyətdədir".

İqtisadçının fikrincə, dəniz nəqliyyatı ilə yükdaşımaların azalması subyektiv amillərlə bağlıdır. Dəniz nəqliyyatı ilə yüklərin daşınmasının azalması səbəblərindən biri hava şəraitinin pisləşməsidir. Həmçinin, qonşu ölkələr yüklərin daşınmasını müvəqqəti olaraq digər nəqliyyat yolu ilə həll edirlər. Bu kimi amillər daşınan yüklərin həcminin azalmasına təsir edir.

P.Heydərov onu da vurğuladı ki, regionda qonşu dövlətlərlə müsbət əməkdaşlıq həyata keçirilir. Gələcəkdə Azərbaycan üzərindən yükdaşımaların artmasının şahidi olacağıq.

**Günel CƏLİLOVA**

# Azərbaycan internetin sürətinə görə dünya üzrə pis yer tutdu - 98-ci pillə...

**Dünyada internetin sürətinə görə 196 ölkənin adı daxil edildiyi siyahı dərc olunub. Məlum olub ki, Azərbaycan həmin siyahıda 98-ci sırada qərarlaşıb. Bildirilir ki, Azərbaycanda internetin sürəti 5,7 meqabitə bərabərdir. Bu göstəriciyə görə isə Azərbaycan region ölkələri arasında yalnız Ermənistan, Türkmənistan və Tacikistandan öndədir. Digər ölkələrdən isə geridə qalıb.**



*"Bu səbəbdən bir sıra ölkələrlə müqayisədə Azərbaycanda internetin sürəti aşağıdır"*

## Osman Gündüz: "Genişzolaqlı internetin çəkilməsi ilə bağlı məsələ yalnız dövlət provayderlərinin səlahiyyətindədir"

Region ölkələri arasında ən sürətli internetin olduğu ölkə Ukrayna hesab olunur. Belə ki, siyahıda Ukrayna internetin sürətinə görə ən yaxşı nəticə göstərən 37-ci ölkə olub. Ukraynada internetin orta sürəti 12,8 meqabitə (Mbps) bərabər olub.

Region ölkələrinin 196 ölkə arasındakı mövqeyi və internetin orta sürəti belə olub: 37. Ukrayna - 12,8 Mbps, 44. Rusiya - 11,8 Mbps, 50. Qazaxıstan - 10,6 Mbps, 52. Belarus - 9,8 Mbps, 61. Gürcüstan - 8,8 Mbps, 74. Türkiyə - 7,6 Mbps, 98. Azərbaycan - 5,7 Mbps, 103. Ermənistan - 5,2 Mbps, 109. İran - 4,7 Mbps, 125. Türkmənistan - 3,6 Mbps, 151. Tacikistan - 2,6 Mbps.

Məlumat üçün onu da qeyd edək ki, internetin ən sürətli olduğu ölkə Cənubi Koreya hesab olunur. Bu ölkədə internetin orta sürəti 28,5 Mbps-ə bərabərdir.

Görünən odur ki, internetin sürətinə görə Azərbaycan çox pis yerdə qərarlaşıb. İki il əvvəl Azərbaycanın adı heç 100 ölkə içində belə deyildi. Azərbaycanın kosmosda peyki olsa da, görünən odur ki, sanki bu sahədə vəziyyət dəyişməyib.

Maraqlıdır, ekspertlər Azərbaycanın internetin sürətinə görə 98-ci yerdə qərarlaşmasını nə ilə əlaqələndirirlər? Dünya ölkələri içərisində Azərbaycan niyə belə aşağı yerdədir?

**Məsələyə münasibət bildirən "Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüzün sözlərinə görə, ölkədə internetin sürətində ciddi problemlər var:** "Problem ondadır ki, bizdə bununla bağlı liberal mühit yoxdur. Hələlik bazarda xüsusi çəki dövlət provayderlərinin üzərindədir. Yəni genişzolaqlı internetin çəkilməsi ilə bağlı məsələ yalnız dövlət provayderlərinin səlahiyyətindədir. Azərbaycanda 40-a qədər internet provayderi var, amma yalnız iki dövlət provayderi üstün hüquqa malikdir. Dövlət provayderlərinin də elə böyük resursları yoxdur ki, sürətli internet istifadəçilərinin sayını bir anda artırsınlar. Bu mümkün olan iş deyil. Çünki iki provayder nə qədərinə gücü çatırsa, onu edir. Bu səbəbdən bir sıra ölkələrlə müqayisədə Azərbaycanda internetin sürəti aşağıdır. Qonşu ölkələrdən çox geri qalırıq. Çıxış yolu özəl provayderlərin yeraltı kabel sistemindən istifadə etmələrinə icazənin verilməsindən keçir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi hələlik onlara belə bir icazə vermir. Yalnız dövlət provayderlərinə belə bir icazəni verir. O səbəbdən sözügedən məsələ ciddi problemə çevrilib. Düşünürəm ki, nazirlik bununla bağlı ciddi addımlar atmalıdır. Yeraltı kabel-kanal sistemindən istifadə ilə bağlı qaydalar hazırlanmalıdır. Təəssüf ki, hələlik elə bir qayda yoxdur. Bax, problemin kökü bundadır".

***Vidadi ORDAHALLI***

# Xaricdə doktorantura təhsilimiz əsasən dəqiq ixtisaslar üzərində qurulub, humanitar sahələr...

**Azərbaycan gənclərinin xaricdə təhsil alması məsələsi dövlətin əsas hədəflərindən biridir. Məlum olduğu kimi, gənclər müxtəlif ali təhsil pillələri üzrə dövlət xəttilə dünyanın ayrı-ayrı ali məktəblərində təhsillərini davam etdirirlər. Xaricdə doktorantura təhsili üçün artıq yeni ixtisaslar müəyyənləşib. Bu barədə qərarı Baş nazir Novruz Məmmədov imzalayıb.**



*"Düşünürəm ki, təsdiqlənmiş ixtisaslar sırasında dəqiq, fundamental, təbiət elmlərinin üstünlük təşkil etməsi doğrudur"*

## İlqar Orucov: "Milli-ideoloji, humanitar və ictimai elmlər üzrə bəzi istiqamətlərdə kadr hazırlığı məsələsinin Azərbaycanda həyata keçirilməsi daha məqsədəuyğundur"

"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na əsasən, Azərbaycan Respublikası vətəndaşlarının xaricdə doktorantura səviyyəsi üzrə təhsili üçün aşağıdakı prioritet ixtisas istiqamətləri və ixtisasları müəyyən edilib. Bunlar riyaziyyat, mexanika, astronomiya, fizika, kimya, biologiya elmləri, yer elmləri, coğrafiya, aqrar elmlər, tibb elmləri, əczaçılıq elmləri, səhiyyənin idarə edilməsi, texnika elmləri, iqtisad elmləri, pedaqogika, psixologiya, tarix, sosiologiya və hüquq elmləridir. Sözügedən istiqamətdə filologiya, linqvistika üzrə doktorantların yetişdirilməsi məsələsi müəyyən edilmiş istiqamətlər arasında yoxdur.

**Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin rəhbəri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, xaricdə doktorantura pilləsində təhsil almaq arzusunda olan gənclərlə bağlı təsdiq olunmuş müvafiq siyahıya məlum ixtisasların daxil edilməsi günün reallıqları ilə bağlıdır.** Bu sənəddə humanitar sahə ilə bağlı bənd var, amma sahələr göstərilməyib. Məsələ bundan ibarətdir ki, bu gün dünyanın aparıcı elmi istiqamətləri var. Bizim üçün də prioritet olan təbiət elmləri, riyaziyyat və fundamental elmlərdir. Ona görə də müəyyən edilən ixtisaslardan bu istiqamətlərə daha çox yer verilib. Doktorantura təhsilin elə bir pilləsidir ki, bu artıq akademik pillə sayılır və burada bakalavr və magistr pilləsindən fərqli olaraq, hansısa ölkəni seçən iddiaçı mütləq həmin ölkənin elmi mərkəzində, ali məktəbində özünə ikinci elmi rəhbər seçməlidir. Həmin rəhbər onu ora dəvət etməlidir. Gəlin bir müqayisə aparaq, tutalım, Azərbaycan tarixi üzrə kimsə elmi iş götürüb

*"...o özünə xaricdə elmi rəhbər tapa bilməyəcək"*

müdafiə etmək istəyir. Bu kimi ixtisaslar, əslində, daha çox daxili tələbatla bağlıdır. Bu baxımdan da bu sahədə elmi iş götürən gənclərin xaricdə özünə elmi rəhbər tapması xeyli çətinliklər törədir. Eləcə də Azərbaycan ədəbiyyatı, dilçiliyi ilə bağlı məsələlərdə də belədir. Elə o səbəbdəndir ki, bu kimi proqramlarda humanitar sahələrə az önəm verilir (təbii ki, bu gənclər dövlət hesabına xaricdə təhsil alacaqlar - İ.O). Bu kimi sahələrin inkişaf etdirilməsi, bu sahələrdə kadrların hazırlanması, əslində, dövlətin öz marağında olmalıdır. Humanitar sahələr daxili auditoriyaya hesablanmış, ona ünvanlanmış və kadr hazırlığını daxildə həyata keçirməyə yönəlmiş ixtisaslardır. Ona görə də düşünürəm ki, təsdiqlənmiş ixtisaslar sırasında dəqiq, fundamental, təbiət elmlərinin üstünlük təşkil etməsi doğrudur. Tutalım, kimsə Cəlil Məmmədquluzadə irsi ilə bağlı tədqiqat aparırsa, o özünə xaricdə elmi rəhbər tapa bilməyəcək, heç xariciləri bu mövzu maraqlandırmır da. Milli-ideoloji, humanitar və ictimai elmlər üzrə bəzi istiqamətlərdə kadr hazırlığı məsələsinin Azərbaycanda həyata keçirilməsi daha məqsədəuyğundur, bu sahələr üzrə doktorantların xaricdə hazırlanması elə də mümkün deyil".

Humanitar sahənin genişmiqyaslı olduğunu deyən İ.Orucov hesab edir ki, burada müxtəlif sahələr üzrə mütəxəssislər tədqiqatlar apararlar. O qeyd etdi ki, humanitar sahəyə aid olan bəzi istiqamətlər beynəlxalq əhəmiyyətli mövzuları əhatə etdiyi üçün, o sahələr üzrə xaricdə doktorantlar hazırlana bilər. "Məsələn, türkologiya sahəsi üzrə hazırlamaq tam mümkündür. Bu gün Avropanın müxtəlif elmi mərkəzlərində türkoloq alimlər var, onlar bu sahə ilə əhatəli məşğul olurlar. Şərqşünaslıq sahəsi də həmçinin. Bu sahədə xaricdə elmi rəhbər tapmaq mümkündür" - deyə İ.Orucov vurğuladı.

***İradə SARIYEVA***

**Açıqlanan statistik rəqəmlərə əsasən, bu ilin yanvar-aprel aylarında Azərbaycan 2,658 mln. ABŞ dolları dəyərində 419 ton çay ixrac edib. Dövlət Gömrük Komitəsinin yaydığı məlumatda qeyd olunur ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə məbləğ baxımından 556 min dollar (17,3%), həcm baxımından isə 58 ton (12,1%) azdır.**

# Çayı həm ixrac edirik, həm də idxal - yerli istehsal tələbatı niyə ödəmir...

## *Nicat Nəsirli: "Çayçılıq böyük investisiya tələb edən sahədir"*



*"2027-ci ilə kimi ölkədə çay sahələri artırılaraq 3000 hektara çatdırılmalı, yaşıl çay yarpağının yığımı 800-900 ton civarında olmalıdır"*

Eyni zamanda, bu ilin ilk dörd ayında Azərbaycan 16,688 mln. dollar dəyərində 4 377 ton çay idxal edib. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə məbləğ baxımından 817 min dollar (5,1%), həcm baxımından isə 242 ton (5,85%) çoxdur.

Hesabat dövründə çay ixracı Azərbaycanın ümumi ixracının 0,04%-ni, çay idxalı isə ölkənin ümumi idxalının 0,37%-ni təşkil edib. Bununla da yanvar-aprel aylarında Azərbaycanın çay idxalı ixracını 10,4 dəfə üstələyib.

Statistik rəqəmlər onu göstərir ki, Azərbaycan çay istehsal edən ölkə olsa da, hələlik bu sahə idxaldan asılı vəziyyətdədir. Çayçılıq sektoru üzrə özünəməxsus ənənəsi olan ölkəmizin nə səbəbdən idxaldan asılı olmasını öyrənmək üçün mütəxəssislərə müraciət etdik.

**Kənd təsərrüfatı məsələləri üzrə ekspert Nicat Nəsirli qeyd etdi ki, ötən əsrin 90-cı illərində Sovet İttifaqı dağıldıqdan sonra qida sənayesinin bir sıra sahələri tənəzzülə uğradı.** Bu mənada, ən böyük zərbə çayçılıq sahəsinə dəydi: "Çayçılıq Azərbaycanda ötən əsrin 30-cu illərində inkişaf etdirilməyə başlayıb. 90-cı illərə qədər bu sahə müəyyən bir səviyyəyə gəlib çatdı. Sonradan çay sahələrinin bioloji olaraq qocalması, bu sahənin rentabelliyini itirməsi və eləcə də xaricdən gələn məhsulun daxili bazarı tutması nəticəsində 2010-cu ilə qədər bu sahə sürətlə tənəzzülə uğradı. Nəticədə çay sahələri azalaraq cəmi 587 hektara çatdı. Məhsul istehsalı da təqribən 540 ton civarında idi. Bu sahənin gerilməsinin müxtəlif səbəbləri var. Bildiyimiz kimi, çay emal tələb edən bitkidir. Yəni çayı emaldan keçirmədən istehlak etmək mümkün deyil. Onun texnologiyasının sıradan çıxması çay sahələrinin əkininə və becərilməsinə təsir etdi. 2010-cu ildən digər kənd təsərrüfatı sahələrinə olduğu kimi, çayçılığa da diqqət artırıldı. Bu sahəyə dövlət tərəfindən müəyyən dəstək göstərilir, yəni artıq bu proses başlayıb. Çayçılıqla bağlı dövlət proqramı qəbul olunub. Qəbul edilən proqrama əsasən, 2027-ci ilə kimi ölkədə çay sahələri artırılaraq 3000 hektara çatdırılmalıdır. Yaşıl çay yarpağının yığımı 800-900 ton civarında olmalıdır. Bu, qarşıya qoyulan hədəfdir. Amma reallıq hələ ki, bunu əks etdirmir".

Həmsöhbətimiz onu da əlavə etdi ki, bu sahədə olan ciddi problemlərdən biri də çayın texniki bitki olması və əkindən 7 il sonra məhsula düşməsidir: "Bu sahəyə investisiya yatırılıb uzun müddət gözləmə məsələsi sahibkarları çəkindirir. Çayçılıq böyük investisiya tələb edən sahədir və yalnız böyük şirkətlər, investorlar bu xərci qarşılaya bilər. Çayın əsas xüsusiyyətlərindən biri də odur ki, il ərzində çoxsaylı aqrotexniki qulluq tələb edir. Bütün bunlar üçün isə böyük maliyyə lazımdır. 7-8 il becərilən çay yüklü miqdarda vəsait tələb edir. Digər tərəfdən, dünyanın çay bazarında böyük çay istehsalçıları var. Onlardan ən birinci olaraq Çinin adını çəkə bilərik. Çin hər il 400 min tona yaxın çay ixrac edir. Keniya Afrika qitəsinin ən böyük çay istehsalçısıdır. Bu ölkə hər il 370 min tondan çox məhsul istehsal edərək dünya bazarına çıxarır. Azərbaycanın idxal etdiyi çay əsasən Şri-Lankadan gəlir. Şri-Lanka həm təbii şəraitinə, həm də çayçılıq təcrübəsinə görə çox böyük potensiala malik bir ölkədir. Yəni dünya bazarında bu sahə üzrə böyük rəqabət var. Belə bir rəqabətin olduğu mühitdə çayçılığa böyük həcmdə investisiya yatırmaq sahibkarlar üçün kifayət qədər risqli məsələdir. Eyni zamanda, qonşu ölkə Türkiyə də çayçılıq sənayesində xeyli irəliyə gedib. Azərbaycan Türkiyədən bəlli miqdarda çay idxal edir. Amma bu o demək deyil ki, biz bu sahədən imtina etməliyik. Çünki çayçılıq əməktutumlu bir sahədir. Bir hektar çay bağının becərilməsində orta hesabla 150-160 insan il ərzində daimi çalışır. Ona görə də 2018-2027-ci illəri əhatə edən dövlət proqramı tərtib olunub. Proqramın çox ciddi hədəfləri var. Amma istədiyimiz nəticəni əldə etmək üçün bir qədər gözləməliyik".

***Günel CƏLİLOVA***

---

**Zaqatala rayon sakini Makarova Zülfiyə Murtuzəli qızı "Bakı-Xəbər"ə ünvanladığı şikayət məktubunda bildirir ki, rayonun bəzi qurumları tərəfindən süründürməçiliyə məruz qalıb: "Mən üç uşaq anasıyam. Uşaqlarımı təkbaşına böyüdürəm. Evdə kişi olmadığı üçün, bütün işlərin dalınca özüm getməyə məcburam.**

# Zaqatala sakini rayon bələdiyyəsindən və su məmurlarından niyə narazıdır...



Rayonumuzun mərkəzində, Zaqatala şəhəri, Vasif İsmayılov küçəsi 7A ünvanında olan fərdi evimə içməli su xətti çəkdirə bilmirəm. Ətraf qonşularımızın hamısına su verilsə də, bu işə məsul olan Zaqatala su idarəsinin işçisi Naib adlı şəxs məni süründürməçiliyə salıb. Artıq iki aydır ki, mən onun qapısında əsir-yesir qalmışam. Hər dəfə gedəndə deyir ki, sənədlərim gedib təsdiqə gəlməyib. Bəs necə olur ki, məndən sonra sənəd verənlərin hamısına su çəkildi, amma mənə yox? Bilirəm ki, umacağı var. Mənə bildirilir ki, təkcə suyun çəkilmə xərci üçün 500 manata yaxın pul verməliyəm. Yəqin əlavə də bir az özü üçün umur ki, məni bu şəkildə incidir. Mən ona açıq demişəm ki, tək qadın üç uşaq böyüdürəm, mənim o qədər pulum yoxdur. Əgər bu layihə dövlət hesabına reallaşırsa, mən niyə o qədər pul ödəməliyəm? Dövlətin müəyyən etdiyi rüsumu isə qəpiyinə kimi ödəməyə hazıram".



Xanım şikayətçinin sözlərinə görə, onların ailəsi digər bir süründürməçilik faktı ilə pay torpaqları ilə bağlı sənədin alınmasında üzləşib. Zülfiyə xanım bildirir ki, Zaqatala rayonu Danaçı kənd bələdiyyəsinin sədri Əmrullah Həlləyev müxtəlif bəhanələrlə onlara qanuni verilməli olan sənədi vermir ki, onlar həmin sənədlə notariusda lazım olan əməliyyatı aparsınlar: "Atamın adına olan torpaqlarla bağlı hər il dövlətin rüsumunu ödəyirik. Bunu təsdiq edən bütün sənədlər də əlimizdə var. Ancaq bələdiyyə sədri deyir ki, guya bizim 300 manata yaxın borcumuz var. Bunu da əsas gətirib bizə ödədiyimiz pula aid sənədi vermir. Yəni o, sənəd verməlidir ki, bizim torpaq vergisinə heç bir borcumuz yoxdur, amma bunu etmək istəmir".

Şikayətçinin süründürməçilikdə ittiham etdiyi hər iki şəxslə əlaqə saxladıq. Zaqatala Rayon Su İdarəsinin məsul işçisi Naib müəllim bizimlə söhbətində belə bir müraciətin olduğunu təsdiqlədi: "Biz də istəyirik ki, həmin xanıma əlimizdən gələni edək. Mən hazırda məzuniyyətdəyəm, amma tapşıracam ki, o işi həll etsinlər. Həmin xanım əvvəllər arteziandan istifadə edib. Əraziyə su çəkiləndə isə Rusiyada yaşadıqları üçün, vaxtında suyu çəkdirməyiblər. Hazırda sənədlərini regional idarəyə göndərmişik, təsdiqlənsin, köməklik edəcəyik. Amma suyun çəkilməsi ilə bağlı bütün xərci özü çəkməlidir. Sizə bir daha söz verirəm ki, bu məsələ ilə ciddi maraqlanacağam".

Torpaq vergisinin ödənilmədiyini iddia edən bələdiyyə sədri Əmrullah Həlləyev də bizim sorğumuzu cavablandırdı. Onun sözlərinə görə, həmin ailə ilə heç bir qəsdi-qərəzi yoxdur: "Makarov Murtuzəli və onun rəhmətə gedən bacısına məxsus torpaq sahələri ilə bağlı həmin ailə hansısa varislik məsələsini qanuni şəkildə həll etmək sitəyir. Buna görə də notariatdan torpaq vergisinin tam ödənildiyi ilə bağlı sənəd istəyirlər. Mən həmin sənədi ona görə verə bilmirəm ki, onların borcu var. Ailə iddia edir ki, ödənişi daim ediblər. Mən də bunu inkar etmirəm. Amma elə dönəmlər olub ki, borclar qalıb. Onlar Ədliyyə Nazirliyinə də şikayət ediblər. Hətta başqa qurumun hesabdarları da yoxlayıb bu qənaətə gəldilər ki, onların həqiqətən borcu var. Həmin borcu mən ağlımdan demirəm.

Mərkəzləşmiş informasiya portalında da bu göstərilir. Hətta istəyirlər prokurorluğa müraciət etsinlər, gəlib yoxlasalar görəcəklər ki, mən haqlıyam. Pul ödəmək o demək deyil ki, sənin borcun ola bilməz".

***Məhəmmədəli QƏRİBLİ***

№ 95 (3993) ■ Qiyməti: 50 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

30 MAY 2019-cu il

## "Nar" bir çox xidmət və məhsullar üzrə yeniliklər edəcək

**"Nar" 2019-cu il ərzində bir çox xidmətlər və məhsullar üzrə müştəri məmnuniyyətini daha da yaxşılaşdıracaq və növbəti pilləyə qaldıracaq yeniliklər edəcək. Bunu "Nar"ın marketinq üzrə direktoru Qəhrəman Kazımov "Qafqazinfo"ya müsahibəsində deyib.**

"Nar"ın qarşıdakı planları barədə məlumat verən Q.Kazımov bildirib ki, mobil operator bütün ölkə əhalisinin 4G internetinin sürətindən və rahatlığından faydalanması üçün şəbəkəsini daha da genişləndirməyi, xüsusilə də 4G şəbəkəsini hazırda tətbiq olunmayan regionlara penetrasiya etməyi nəzərdə tutub.

Qəhrəman Kazımov qeyd edib ki, 2019-cu il üçün ən mühüm planlardan biri satış şəbəkəsində ediləcək dəyişikliklərdir: "Ümumilikdə, 2019-cu ildə diler şəbəkəmizi daha müasir, geniş, eyni zamanda, müştəri təcrübəsini daha da artıracaq kanala çevirmək kimi planımız var. Bunu ilk növbədə regionlarda yaşayan müştərilərimizə də şamil edirik. Bu gün "Nar" xidmət mərkəzlərinin və dilerlərinin mövcud olmadığı regionlarda yeni dükanların açılması nəzərdə tutulur. Eləcə də diler şəbəkəsinin funksionallığının artırılması baxımından xeyli iş görüləcək".

Azərbaycanın telekommunikasiya bazarında rəqabət mühitini dəyərləndirən Q.Kazımov deyib ki, həm şəbəkə keyfiyyəti, həm müştəri məmnuniyyəti, həm də bazara təqdim olunan məhsullar və onların qiymətləri ilə bağlı güclü rəqabət var. Hazırda "Nar"ın bazardakı mövqeyi güclənməkdədir.

"Nar"ın marketinq üzrə direktoru Q.Kazımovun "Qafqazinfo"ya müsahibəsinin tam mətni ilə aşağıdakı keçid vasitəsilə tanış olmaq olar: http://qafqazinfo.az/news/detail/abunecilere-seffaf-internet-tecrubesi-yasadiriq-qehreman-kazimov-253447

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib."Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

## Elan

Məmmədova Nəzrin Nazim qızına Qərbi Kaspi Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Heydərova Əzizə Ağa Qulu qızına məxsus, Bakı şəhəri, Səbail rayonu, Q.Abbasov küçəsi, ev №48, mənzil №29 ünvanının çıxarışı (seriya MH №0068248) itdiyi üçün etibarsız sayılır.

Alməmmədov Fərman Səməd oğlunun adına, Bakı şəhəri, Nərimanov rayonu, Daş Karxanası, ev №694 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Həsənli Mirhəsən Natiq oğlunun adına, Abşeron rayonu, Digah qəsəbəsində yerləşən torpaq sahəsinin (seriya RX №1084880) HDQHDƏDR-dən çıxarışı itdiyi üçün etibarsız sayılır.

İlhamə Hüseynovaya məxsus, Abşeron rayonu, Masazır kəndində yerləşən ünvana verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

## İnsanın Marsa uçacağı tarix açıqlandı

**Ekspertlərin qiymətləndirməsinə əsasən, Marsa planlaşdırılan uçuş 2039-cu ildən tez baş tutmayacaq. "Deyerler.org" bildirir ki, NASA 2033-cü il üçün "Qırmızı planet"ə insan göndərməyə hazırlaşır.**



NASA-ın direktoru Cim Braydenstaynın fikrinə görə, 2024-cü ildə Aya planlaşdırılan pilotlu uçuş, Marsa ediləcək uçuş üçün işləri sürətləndirərək, təhlükəsizliyi təmin edəcək dayanacaq vasitə olacaq. Lindon Conson adına Kosmik Mərkəzin kosmosda yaşam mühitinin hazırlanması üzrə aparıcı mütəxəssis Robert Hovardın sözlərinə görə, digər planetə uçuş 2037-ci ildən tez olmayacaq. Ən nikbin hesablamalara görə, Marsa uçuş, prinsipcə 2027-ci ilə mümkün olsa da, az ehtimal edilir. Kosmik uçuşlar əsasən siyasətdən və ayrılan sərmayədən asılıdır. Eyni zamanda, yeni skafandrların hazırlanmasında, təhlükəsizlik sistemlərinin yaradılmasında, qida təminatı sahəsində yeniliklərin edilməsində NASA-nın əsas rolu var. Ən gec halda planetlər arası uçuşun 2060-cı illərdə baş verəcəyi gözlənilir.

## Yaponiyada yanğınsöndürən robot dəstəsi yaradıldı

**Yaponiyada irimiqyaslı yanğınların söndürülməsi üçün yanğınsöndürən robot dəstəsi yaradılıb.**



"Deyerler.org-a istinadən bildirir ki, bu robotlardan yanğının daha təhlükəli hissələrində istifadə olunacaq. Bir dəstəyə dörd kateqoriyadan ibarət robot daxildir. Robotlardan biri pilotsuz uçuş aparatıdır. Bu aparat yanğının xüsusiyyətləri barədə dəqiq məlumatları çatdırır. Digər robotlar isə dağıntıları təmizləmək üçün ekskavator tipli aparat, eləcə də, su şlanqları olan təkərli maşınlardır. "Trend" bildirir ki, bu cür robotlar hadisə yerinə bir yük maşını vasitəsilə çatdırıla bilər.

## Tarixin ən sürətli təyyarəsinin istehsalına başlanır

**"Boom Supersonic" şirkətinin "Mach-2.2" sərnişin təyyarəsi olan "Overture" modelinin layihəsi və istehsalı prosesini sürətləndirmək üçün "Dassault Systemes" artıq "SDEXPERİENCE" platformasını istifadə etdiyini açıqlayıb.**

"Ölkə.az" bildirir ki, məsələ ilə bağlı "Boom Supersonic" şirkətinin rəhbərlərindən biri Coşua Krall açıqlama verib. O, bildirib ki, sözügedən layihə qitələrarası sərnişin daşımasında inqilaba səbəb olacaq.

Hazırda şirkət tərəfindən "XB-1" ikinəfərlik təyyarə istehsal edilir. Şirkətin əsas layihəsi olan "Overture" istifadəyə yararlı halda olanda, tarixin ən sürətli sərnişin təyyarəsi olacaq.

Mach 2.2 sürətində Nyu-Yorkdan Londona 3 saatda çatmaq mümkün olacaq. Bu gün isə həmin məsafə 9 saata qət edilir. Tokiodan San-Fransiskoya isə uçuş müddəti cəmi 5.5 saat olacaq.





**Qoç** - Venera və Haumeanın münasibətləri bu gün güclü təəssüratların arxasınca düşməyi məsləhət bilir. Çoxsaylı tədbirlər planlaşdırmayın. Sakit, aram gündür. İşlərinizi soyuqqanlı şəkildə, tələsmədən görün.



**Buğa** - Merkuri və Saturnun münasibətləri tələsməyi məsləhət bilmir. Bu gün tək qalmayın, yaxın tanışlar və dostlar arasıda olun. Böyük gözləntilərə qapılmayın, mühüm məsələlərin həllini planlaşırmayın.



**Əkizlər** - İo və Kallistonun münasibətləri bir mövzunun sizi bitkin mövqeyinizə hegemonluq etməsi ilə nəticələnə bilər. Enerjinin bir istiqamətdə axması yaşamın digər mühüm aspektlərini müdafiəsiz edə bilər.



**Xərçəng** - Deymos və Andromedanın münasibətləri bu gün sizi kiçik problemlər yarada bilər. İzafi dərəcədə çox tələb etməkdən, inaddan çəkinin. Özünüzə əminlik bu gün sizi çətin vəziyyətdə qoya bilər.



**Şir** - Erida və Makemakenin münasibətləri ağıllı davranışın yaxşı nəticə verəcəyi gün vəd edir. Gurultulu bəyanatlar verməyin, qapını çırpmayın. Dəyərləndirmələr, ehtimallar və diaqnozlarla tələsməyin.



**Qız** - Haumea və Plutonun münasibətləri maraqlarınız çərçivəsində olan işlərin çözülməsini tələb edir. Səfər, gəzinti, ezamiyyət və ya sizin üçü iri məbləğdə pulun xərclənməsi məsləhət deyil. Ünsiyyət və hətta əyləncə belə, sizi razı salmayacaq.



**Tərəzi** - Pluton və Sereranın münasibətləri neytral gün vəd edir. Dünən çətin gün idi və bu səbəbdən ifrat gərginlik vəd edən yeni işə başlamayın. Uzun-uzadı ünsiyyət, məcburi olmayan işlərlə özünüzü yormayın.



**Əqrəb** - Leda və Himaliyanın münasibətləri sizi qeyri-konstruktiv məqsədlərə və istiqamətlərə bol enerji sərf etməyə sürükləyə bilər. Bilikli və təcrübəli insanın müdrikliyində yardım arayın, yaxşı məsləhəti qulaqardına vurmayın.



**Oxatan** - Tefeya və Oberonun münasibətləri hisslər, emosiyalar müstəvisində yeniliklər vəd edir. Gözlənilməz hadisələr baş verə bilər. Şəxsi münasibətlər müstəvisində hisslərin tarıma çəkilməsi, umu-küsü, hətta, vidalaşma belə, istisna deyil.



**Oğlaq** - Haron və Tritonun münasibətləri gərgin hadisələrin yaşanacağı gün vəd edir. Rəqiblər qaydaları pozaraq "partizan savaşı"na başlaya bilərlər. Adekvat cavab reaksiyasını düşünün.



**Dolça** - Miranda və Fobosun münasibətləri borcları qaytarmağı, vədləri yerinə yetirməyi, işdə və evdə qayda yaratmağı tələb edir. Həyati önəm daşıyan yeniliklər və dəyişikliklər üçün məkanı təmizləyin, səhmana salın.



**Balıqlar** - Elara və Sinopenin münasibətləri iş həcminin böyük olacağı gün vəd edir. Yaxın gələcəkdə sizi gözləyəcək işlərə bağlı planlar qura bilərsiniz. Yaxın ətrafınızdakı insanlardan dəstək arayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*



## Uşaqlar üçün ən yaxşı ölkələr...

**Sinqapur uşaqların yaşayışı və tərbiyəsi üçün ən yaxşı ölkə hesab olunub.**

"Trend" xəbər verir ki, bu barədə "Save the Children" xeyriyyə təşkilatının tədqiqatında deyilir. Qeyd olunur ki, tədqiqat 176 ölkədə həyata keçirilib. İlk beşlikdə, həmçinin İsveç, Finlandiya, Norveç və Sloveniya qərarlaşıb.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.